Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

13 İYUN 2019-cu il

№ 103 (4001)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur


# PAŞİNYAN MÜHARİBƏ MƏSULİYYƏTİNİ RUSİYANIN ÜSTÜNƏ ATMAQ CƏHDİNƏ QƏTİ CAVAB ALDI...

səh. 5

"Azərbaycan yetərincə güzəşt edib, Ermənistan qiymətləndirə bilməyib" - bəzi ermənilər qarışıq, dünya politoloqlarının qənaəti...

səh. 9

Qazaxıstan Prezidentinin qazax-erməni identikliyi barədə sözləri Ermənistanda da təəccüblə qarşılanır...

səh. 5

Azərbaycanın ABŞ - Çin ticarət müharibəsindən uduşlu çıxmaq imkanları...

səh. 11

Paşinyan hakimiyyəti Ermənistan - qondarma "DQR" ziddiyyətləri barədə informasiyalardan niyə bu qədər narahatdır...

səh. 7

Köçəryanla Sarkisyan açıq birləşir, Qarabağa anti-Paşinyançı yeni "prezidenti" də tapıblar...

səh. 10

Başqa hansı ölkə bir beynəlxalq futbol finalında bu qədər pul qazana bilib...

səh. 13

Azərbaycan milli futbol komandasına bu qədər pul qoyulur, bahalı məşqçi, oyunçular - nəticə isə rüsvayçılıq...

səh. 13

Yaşayış sahələrinin kirayə verilmə mexanizminin rəsmiləşdirilməsi nə deməkdir...

səh. 12



səh. 8

## Fransa şəhərləri ilə Qarabağ separatçılarının məhkəmədə ləğv edilmiş «dostluq xartiyalarının» sayı 5-ə çatdı



Heydər Əliyev gəlməsəydi... AXC-Müsavat sosial xaos, talış separatizmi qarşısında nə edərdi...

səh. 3

Ermənistan özünü qədim Urartu mədəniyyətinə bağlamaqdan əl çəkmir - bu dəfə rus muzeyini də özünə qoşub...

səh. 6



Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli hərbi əməkdaşlıq formatı da reallaşdı

səh. 2

səh. 4

Rufiz Qonaqov Türkmənistan səfirliyi ilə birgə birinci Xəzər İqtisadi Forumuna dair ilk Dəyirmi masa müzakirələri təşkil etdi...



səh. 3

Azərbaycanlı jurnalist Fuad Abbasovun Rusiyadan deportasiyasında üçüncü qüvvələr məsələsi...



səh. 7

Türkiyənin yığcam kürd bölgələrində Ermənistanın fəallaşması qorxulu faktora çevrilir...



səh. 15

Tibbi sığorta sistemi həkimlərin firma dərmanları yazmaq üsuluna son qoyacaq



səh. 12

Şadlıq evlərinin "qul əməyinə" qarşı vergi deməşı - 32 müəssisədə çoxlu qeydiyyatsız işçi aşkarlandı...



### Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin vitse-spikerinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Prezident İlham Əliyev iyunun 12-də Türkiyə Böyük Millət Məclisinin vitse-spikeri Süreyya Sadi Bilgiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

### Prezident İlham Əliyev Ümumdünya Gömrük Təşkilatının Bakı Konfransına məktubla müraciət etdi

**Prezident İlham Əliyev Ümumdünya Gömrük Təşkilatının İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfrans və Sərgisinin iştirakçılarına müraciət ünvanlayıb. "Trend"in məlumatına görə, müraciətdə deyilir: "Hörmətli konfrans və sərgi iştirakçıları!**

Sizi ölkəmizin paytaxtı Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar üzrə 2019-cu il Konfrans və Sərgisinin açılışı münasibətilə salamlayır, Konfrans və Sərginin işinə uğurlar arzulayıram.

Belə mötəbər tədbirin Bakı şəhərində keçirilməsini çox yüksək qiymətləndiririk.

Öz əlverişli coğrafi yerləşməsinə görə Asiya və Avropa qitələri arasında körpü rolunu oynayan ölkəmiz Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərində önəmli yer tutur. Azərbaycan mövcud nəqliyyat potensialını və tranzit imkanlarını artırmaqda daim maraqlıdır və bu sahədə iri-miqyaslı infrastruktur layihələri həyata keçirərək böyük sərmayələr qoyur.

Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə daim böyük önəm verilmiş, informasiya cəmiyyətinin formalaşması və inkişafı məqsədilə müvafiq milli strategiyalar qəbul edilmişdir.

Cəmiyyətimiz üçün vacib olan elektron xidmətlərin təşkili, "elektron hökumət" üzrə genişmiqyaslı layihələrin həyata keçirilməsi, dövlət idarəçiliyində səmərəliliyin, şəffaflığın və operativliyin artırılmasını təmin edir.

Bu qlobal çağırışlar şəraitində, Azərbaycanın gömrük xidmətində də ciddi işlər aparılır. Gömrük işi sahəsində rəqəmsal gömrük inzibatçılığının inkişaf etdirilməsi, biznes proseslərinin, gömrük nəzarətinin təşkilində, gömrük prosedurlarının sadələşdirilməsi və şəffaflığının artırılması istiqamətində ciddi layihələr həyata keçilir və gömrük sahəsində müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqinə və istifadəsinə xüsusi önəm verilir.

Ümumdünya Gömrük Təşkilatının hər il keçirdiyi bu tədbirdə dünyada tətbiq olunan qabaqcıl yeniliklərin nümayiş etdirilməsi beynəlxalq əməkdaşlığın zəruriliyini bir daha təsdiq edir.

Ümumdünya Gömrük Təşkilatının "SMART sərhədlər üçün yeni texnologiyalar, Ticarət, Səyahət və Daşımalar üçün yeni imkanlar" mövzusunda Konfrans və Sərgisinin ölkəmizdə keçirilməsini alqışlayır, konfransın yekunları üzrə səmərəli nəticələrin əldə ediləcəyini, aparılacaq müzakirələrin və keçiriləcək görüşlərin qarşılıqlı əməkdaşlıq əlaqələrinin dərinləşməsinə və bu sahədə yeni təşəbbüslərin meydana çıxmasına mühüm töhfə verəcəyinə ümid edirəm".

### Yazıçı Yunus Oğuzun Aprel döyüşlərindən bəhs edən "Ovçu" romanı Daşkənddə özbək dilində də çap edildi

**Tanınmış Azərbaycan yazıçısı, türkoloq alim, tarixi romanlar müəllifi Yunus Oğuzun Aprel döyüşlərindən bəhs edən "Ovçu" romanı Daşkənddə özbək dilində çap olunub.**




AZƏRTAC xəbər verir ki, kitab Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşkilatçılığı ilə dərc edilib. "Ovçu" romanını özbək dilinə alim, tərcüməçi Gülbahar Aşurova çevirib, məsul redaktoru Burabiyya Rəcəbovadır. Bu tarixi roman Azərbaycanın Milli Qəhrəmanı Murad Mirzəyevdən bəhs etsə də, ümumən Qarabağ döyüşlərində şəhid olan bütün igid əsgərlərin əziz xatirəsinə bir elegiyadır. Qeyd edək ki, romanda Azərbaycanın dövlət başçısının obrazı xüsusi yer tutur. "Ovçu" romanı qəhrəmanlığın təbliğində, zəfər tariximizin gənc nəslə təlqin edilməsində mühüm rol oynayır. Xatırladırıq ki, son bir neçə ildə Daşkənddə müəllifin "Əmir Teymur", "Şah arvadı və cadugər", "Sultan Alp Arslan", "Atabəy Eldəniz" romanları çap olunub və populyarlıq qazanıb. Yaxın günlərdə romanın Daşkənddə təqdimatının keçirilməsi də nəzərdə tutulur.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Yanardağ" qoruğunun açılışında iştirak etdilər

**İyunun 12-də əsaslı şəkildə təmir və bərpa olunan "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun açılışı olub.**



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Xatırladaq ki, 2017-ci il dekabrın 29-da Prezident İlham Əliyev "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunda olmuşdu. Dövlət başçısı o zaman buradakı çatışmazlıqları və qeyri-məqbul şəraitin olduğunu qeyd edərək, bunun ölkəmizin ümumi inkişaf səviyyəsinə uyğun gəlmədiyini bildirmişdi. Prezident İlham Əliyev oradaca qoruqdakı şəraitin qısa müddət ərzində müasir səviyyəyə çatdırılması barədə aidiyyəti dövlət qurumlarına ciddi tapşırıq vermişdi.

Dövlət başçısı qoruğun rəmzi açılışını bildirən lenti kəsib.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya görülən işlər barədə məlumat verib.

# Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli hərbi əməkdaşlıq formatı da reallaşdı

## *Üç nazirin Qəbələ görüşü böyük nəticə verdi*

**İyunun 12-də Qəbələ şəhərində yerləşən Heydər Əliyev Konqres Mərkəzində Azərbaycanın Müdafiə naziri Zakir Həsənov, Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar və Gürcüstanın Müdafiə naziri Levan İzoriya arasında üçtərəfli formatda görüş keçirilib.**




Baki-xeber.com nazirliyin saytına istinadən xəbər verir ki, görüşdə Müdafiə nazirləri regionda cərəyan edən hərbi-siyasi vəziyyət, üçtərəfli formatda hərbi əməkdaşlığın inkişaf etdirilməsi, regional layihələrin təhlükəsizliyinin təmin olunması məsələlərini müzakirə edib. Tərəflər, həmçinin, üçtərəfli hərbi əməkdaşlıq sahəsində qarşılıqlı maraq doğuran digər aspektlər barədə də ətraflı fikir mübadiləsi aparıb.

Sonda danışıqların yekununa dair protokol imzalanıb və kütləvi informasiya vasitələri nümayəndələri üçün brifinq keçirilib.

Z.Həsənov bildirib ki, tədbirin əsas mövzularından biri Azərbaycan və Türkiyə arasında baş tutan hərbi təlimlər olub. O qeyd edib ki, hər iki ölkə bu təlimlərə Gürcüstanı da dəvət edir:

"Bildirmək istəyirəm ki, hərbi əməkdaşlıqda birgə təlimlər xüsusi rol oynayır. İlbeil birgə təlimlərin sayı artır, misal üçün, 2018-ci ildə 7 təlim icra olunmuşdusa, 2019-cu ildə 13 təlimin keçirilməsi nəzərdə tutulub. İlin sonuna kimi bu təlimlər icra olunacaq. Mən Türkiyə və Azərbaycan hərbi təlimləri haqqında danışıram. Görüşdə də qeyd olundu ki, biz Gürcüstan tərəfini də bu təlimlərdə müxtəlif formada iştiraka dəvət edirik".

Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar Qəbələdə Azərbaycanın Müdafiə naziri Zakir Həsənov və Gürcüstanın Müdafiə naziri Levan İzoriya ilə keçirdiyi üçtərəfli görüşdən sonra mətbuata açıqlamasında deyib ki, Türkiyə, Azərbaycan və Gürcüstanın koordinasiyalı şəkildə əməkdaşlığı çox önəmlidir.

H.Akar bildirib ki, görüşdə tərəflər mövcud iş birliyi və əməkdaşlıq potensialının perspektivlərini müzakirə ediblər.

Onun sözlərinə görə, üç ölkənin yerləşdiyi bu region, hamıya bəlli olduğu kimi, neft və təbii qaz kimi enerji qaynaqlarının dünyaya çatdırılması üçün çox ciddi əhəmiyyətə malikdir: "Bu baxımdan regionda beynəlxalq güclərin maraqları toqquşur. Türkiyə, Azərbaycan və Gürcüstanın koordinasiyalı şəkildə bir yerdə əməkdaşlıq edərək çalışması çox önəmlidir".

Türkiyəli nazirin sözlərinə görə, iş birliyi müdafiə, hərbi və təhlükəsizlik mövzuları ətrafında olmaqla üç ölkənin maraqlarına xidmət edir. "Əməkdaşlıq hər il daha da möhkəmlənir və genişlənir. Mən inanıram ki, əlaqələrimiz yalnız müdafiə, hərbi və təhlükəsizlik deyil, eyni zamanda bütün sahələri əhatə edəcək. Bu əlaqələr digər ölkələr üçün də ciddi önəm daşıyacaq. Azərbaycan Müdafiə nazirinin qeyd etdiyi kimi, ölkələrimiz arasında müdafiə sahəsində imzalanan müqavilələrin yaxın gələcəkdə nəticələrini görəcəyik".

Gürcüstanın müdafiə naziri Levan İzoriya deyib ki, Gürcüstan Azərbaycan və Türkiyənin keçirdiyi birgə hərbi təlimlərdə iştirak edəcək. Baki-xeber.com İnterfax-a istinadən xəbər verir ki, "Hərbi təlimlərin keçirilməsi strateji tərəfdaşlığımızın əsas meyarlarından biridir. Bu gün biz Gürcüstanın da Azərbaycan-Türkiyə hərbi təlimlərində iştirak etməsi barədə qərar qəbul etdik", - deyə L.İzoriya Qəbələdə Azərbaycan, Gürcüstan və Türkiyə müdafiə nazirlərinin üçtərəfli görüşünün yekunları üzrə keçirilən brifinqdə bildirib.

Onun sözlərinə görə, müdafiə nazirləri bu gün regionda təhlükəsizlik məsələlərini müzakirə ediblər.

"Görüşdə ölkələrimizin ərazi bütövlüyünü tanıdığımızı bir daha təsdiq etdik", - deyə gürcü nazir əlavə edib.

O qeyd edib ki, Qəbələ görüşü xalqlarımızın təhlükəsizliyinin təmin olunması baxımından önəmli olub.

**Baki-xeber.com**

# Heydər Əliyev gəlməsəydi... AXC-Müsavat sosial xaos, talış separatizmi qarşısında nə edərdi...

**1993-cü ilin yazından Azərbaycanda hakimiyyət böhranı dərinləşməyə başladı. Hakimiyyətdə olan AXC-Müsavat cütlüyü, faktiki olaraq, ölkəni idarə edə bilmirdi. Aparılan yanlış siyasət ölkədə qanlı qarşıdurmalara səbəb olmuşdu.**

*"AXC-Müsavat cütlüyü bütün bunların öhdəsindən gələ bilməzdi və ölkə dağılardı"*

***Məhərrəm Zülfüqarlı:*** *"Heydər Əliyevin hakimiyyətə qayıdışı sayəsində Azərbaycanı parçalamaq istəyən qüvvələr neytrallaşdırıldı"*

Heydər Əliyev 1993-cü ilin 9 iyununda Bakıya qayıdanda Azərbaycan dövləti böyük təhlükə qarşısında idi. Ölkədə hakimiyyətsizlik və xaos hökm sürürdü. Heydər Əliyev, ilk növbədə, Azərbaycanın itirilmiş dövlətçiliyini bərpa etdi, ölkəni xaos vəziyyətindən çıxardı. Bununla yanaşı, vətəndaş müharibəsinin qarşısını aldı, ölkədə milli barışığa nail oldu, bütün sahələrdə dinamik inkişaf tendensiyalarının əsasını qoydu. Onu da qeyd edək ki, həmin dövrdə dövlətçiliyimiz üçün ən təhlükəli proses separatizm və onun nəticəsində ərazi bütövlüyümüzün növbəti dəfə pozulması təhlükəsi ilə bağlı idi. Erməni işğalçılarının aramsız hücumları, cənubda qondarma "Talış Muğan Respublikası"nın elan edilməsi, şimalda "Sadval" təşkilatının ərazi iddiaları... Bütün bunlar Azərbaycan dövlətçiliyini çox ciddi təhlükə ilə üz-üzə qoyurdu. Erməni işğalçıları Azərbaycanda hakimiyyət böhranından maksimum istifadə edərək əraziləri işğal edirdilər. Yalnız Heydər Əliyevin böyük fəaliyyəti sayəsində Azərbaycan üzləşdiyi bu təhlükələrdən xilas oldu.

Maraqlıdır, 1993-cü ildə Heydər Əliyev hakimiyyətə gəlməsəydi, AXC-Müsavat cütlüyü separatçı "TMR"in, o cümlədən, torpaqların işğal olunmasının davam etməsinin qarşısını ala bilərdimi?

**Məsələyə münasibət bildirən tarix elmləri doktoru, professor Məhərrəm Zülfüqarlının sözlərinə görə, o vaxt Heydər Əliyev gəlməsəydi, bunların heç birinin öhdəsindən o vaxtkı hakimiyyət gələ bilməzdi:** "O vaxt Azərbaycanı ağır vəziyyətdən yalnız Heydər Əliyev xilas edə bilərdi. Bir sıra dövlətlər Azərbaycanda təxribatlar həyata keçirmək istəyirdilər. Nəzərə almaq lazımdır ki, o zaman təkcə Rusiya məsələsi ortada deyildi. Digər məsələlər də var idi. Ona görə də güclü liderə ehtiyac var idi. O da Heydər Əliyev idi. Onun ölkəyə gəlişi ilə Azərbaycan separatizm təhlükəsindən xilas oldu. Başqa qüvvə olsaydı, o zaman vəziyyət daha bərbad durma düşərdi. Eyni zamanda, AXC-Müsavat cütlüyü bütün bunların öhdəsindən gələ bilməzdi və ölkə dağılardı. Yeganə xilas yolu o dövrdə Naxçıvanda olan Heydər Əliyevin hakimiyyətə qayıdışı idi. Onun hakimiyyətə qayıdışı sayəsində Azərbaycanı parçalamaq istəyən qüvvələr neytrallaşdırıldı. Azərbaycandakı hakimiyyət böhranından istifadə edən erməni silahlı qüvvələri bir sıra ərazilərimizi işğal etdilər. Heydər Əliyev olmasaydı, ermənilər daha böyük ərazimizi zəbt edərdilər. O zaman Heydər Əliyev bunun qarşısını aldı və 1994-cü ilin 12 mayında atəşkəs əldə edildi. Ondan sonra neft kontraktları imzalandı. Bunların heç birini o vaxtkı hakimiyyət edə bilməzdi".



***Vidadi ORDAHALLI***

# Azərbaycanlı jurnalist Fuad Abbasovun Rusiyadan deportasiyasında üçüncü qüvvələr məsələsi...

**Azərbaycanlı jurnalist Fuad Abbasovun Rusiyadan ölkəmizə ekstradisiya olunması ilə bağlı məsələ hələ də yubanır. Hətta vəziyyət o yerə çatıb ki, Azərbaycanın Rusiyadakı səfirliyi bununla bağlı Moskvaya rəsmi nota verib.**



***Azər Həsrət:*** *"...şübhəli məqamların olduğunu və bu işdə hansısa maraqlı qüvvələrin maneçilik törətdiyini söyləməyə əsas verir"*

Səfirliyin məlumatında qeyd olunur ki, 11 iyun 2019-cu il tarixində səfirliyin əməkdaşları Fuad Abbasovla növbəti dəfə görüş keçirib, şəraiti ilə yaxından tanış olublar: "Jurnalist Fuad Abbasovun Rusiya Federasiyasından baş tutmayan deportasiyası və Moskva vilayətinin Korolyov şəhərində yerləşən miqrantlar üçün xüsusi saxlanma məntəqəsinə qaytarılması ilə əlaqədar bildiririk ki, səfirliyin konsulluq şöbəsinin əməkdaşları onunla gündəlik əlaqə saxlayırlar. Bundan əlavə, yaranmış vəziyyətin aydınlaşdırılması məqsədilə səfirlik tərəfindən Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinə müvafiq nota göndərilib və digər aidiyyəti dövlət qurumlarına məktublar ünvanlanıb. Rusiya tərəfinin cavabı daxil olan kimi, mətbuata əlavə məlumat veriləcək. Bir daha ictimaiyyətin diqqətinə çatdırırıq ki, səfirlik məsələni nəzarəti altında saxlayır və öz səlahiyyətləri çərçivəsində bütün mümkün tədbirləri görür".

Qeyd edək ki, Moskva vilayətinin Ximki Şəhər Məhkəməsi F.Abbasovun Rusiyadan deportasiya olunması barədə qərar çıxarıb. Qərardan Moskva Vilayət Məhkəməsinə apelyasiya şikayəti verilib. Lakin məhkəmə apelyasiya şikayətini təmin etməyib. Moskva vilayətinin Korolyov şəhərində yerləşən miqrantlar üçün xüsusi saxlanma məntəqəsində saxlanan F.Abbasov Azərbaycana deportasiya olunmasını gözləyir. Ötən həftə öz hesabına bilet alsa da, onu Azərbaycana deportasiya etməyiblər. F.Abbasovun deportasiyasının bu şəkildə yubadılması kimə lazımdır və Moskva niyə bunu edir?

**Media eksperti Azər Həsrət "Bakı-Xəbər"ə bildirdi ki, F.Abbasovla bağlı məsələ qaranlıq məqamlarla zəngindir:** "Onun deportasiya olunması bu qədər uzun çəkməməlidir. Çünki Rusiya qanunvericiliyinə görə, onu təcili şəkildə Azərbaycana göndərməli idilər. İkinci bir tərəfdən isə, mövzu ilə bağlı müxtəlif fikirlər səsləndirilir. Bildirilir ki, Fuad bir müddət əvvəl Rusiyadan deportasiya edilibmiş, sadəcə, sərhədi yenidən Belarus üzərindən qanunsuz keçdiyi üçün həbs edilib. Açığını deyim ki, bu məlumatın nə dərəcədə doğru olub-olmadığı barədə nəsə deyə bilmərəm. Amma aydın şəkildə görünür ki, məsələnin bu qədər şişirdilməsi hansısa qaranlıq məqamlardan xəbər verir. Bu səbəbdən də proses başlayandan çox təmkinli davranmağa üstünlük verirəm. Bununla bağlı böyük şərhlər də vermirəm. Çünki F.Abbasov barəsində müəyyən fikirlər dolaşır.

Ola bilər ki, kimlərsə həmin fikirləri məqsədli şəkildə dövriyyəyə buraxır. Prosesin özünün də belə əcaib və süründürməçiliklə aparılması, mütləq mənada, şübhəli məqamların olduğunu və bu işdə hansısa maraqlı qüvvələrin maneçilik törətdiyini söyləməyə əsas verir. İstərdim ki, Fuadın ölkəyə dönüşünü gözləyək, onun özünün açıqlamaları ilə tanış olaq. Bundan sonra ətraflı məlumat verə bilərik. Həqiqətən də biz bu əcaib prosesin tezliklə yekunlaşmasını istəyirik".

***Məhəmmədəli QƏRİBLİ***

**Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzinin və Türkmənistan Respublikasının Azərbaycandakı Səfirliyinin birgə təşkilatçılığı ilə "I-ci Xəzər iqtisadi Forumu"na həsr olunmuş dəyirmi masa keçirilib. Tədbirdə millət vəkilləri, xəzəryanı ölkə səfirlikləri, ekspert və politoloqlar, ziyalılar və tələbələr iştirak edib.**








# Rufiz Qonaqov Türkmənistan səfirliyi ilə birgə birinci Xəzər İqtisadi Forumuna dair ilk Dəyirmi masa müzakirələri təşkil etdi...






Tədbiri giriş sözü ilə Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, BMAM sədri, siyasi elmlər üzrə fəlsəfə doktoru Rufiz Qonaqov açaraq, Xəzəryanı ölkələrin xalqları arasında dostluq və əməkdaşlıq platformalarının artırılması əhəmiyyətindən danışıb. O, Azərbaycanın Xəzəryanı ölkələrlə dostluq və mehriban qonşuluq münasibətlərinin, ikitərəfli və çoxtərəfli iqtisadi əməkdaşlıq perspektivlərinə diqqəti çəkib. Xəzərin hüquqi statusunun müəyyən edilməsindən sonra Xəzəryanı ölkə başçılarının iştirakı ilə bu ilin avqust ayının 12-də Türkmənistanda təşkil olunacaq I-ci "Xəzər İqtisadi Forum"unun vacibliyindən söz açan BMAM sədri Rufiz Qonaqov keçirilən bu tədbirin də məhz həmin Foruma həsr edildiyini bildirib.

Türkmənistan Respublikasının Azərbaycandakı səfiri Mekan İşankuliyev "Birinci Xəzər İqtisadi Forumu" mövzusunda çıxış edərək, həm Azərbaycan, həm də digər xəzəryanı ölkələr arasında iqtisadi əməkdaşlığın, bu ölkələrin suverenliyinə vacib təsir göstərdiyini bildirərək, qlobal iqtisadi əməkdaşlığın genişləndiyi müasir dünyada xəzəryanı dostluq və əməkdaşlığın əhəmiyyətini qeyd edib.

Məruzə ilə çıxış edən Türkmənistanın Azərbaycandakı səfirliyinin Birinci katibi O. Cumanazarov "Xəzərin tranzit və logistika potensialı" mövzusunda məruzə ilə çıxış edərək, bildirib ki, müasir iqtisadi inkişaf dünya bazarlarına daha effektiv çıxış yollarının axtarışını tələb edir. Bu baxımdan Xəzəryanı ölkələr həm quru, həm də dəniz vasitəsilə geoiqtisadi baxımdan daha əlverişli imkanlarını möhkəmləndirməli və birgə səylərini daha da genişləndirməlidir.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev "Xəzərhövzəsi ölkələrin beyin mərkəzlərinin əməkdaşlıq perspektivləri" mövzusunda çıxış edərək, xəzəryanı ölkələrin birgə səylərin artırılmasında beyin mərkəzlərinin yaradılması ətrafında fəaliyyətin gücləndirilməsini təklif edib. Həmçinin bildirib ki, iqtisadi təşəbbüslərin sistemli və effektli nəticələnməsi üçün beyin mərkəzlərinin rolu müstəsna xarakter daşıya bilər.

Milli Məclisin deputatı, professor Hikmət Məmmədov "Xəzər dənizi yeni enerji və nəqliyyat-kommunikasiya dəhlizi kimi" mövzusunda çıxış edərək Xəzərin nəqliyyat-kommunikasiya dəhlizi ətrafında real vəziyyət və xəzəryanı dövlətlərin əməkdaşlıq perspektivlərindən, qarşılıqlı fayda gətirən iqtisadi əməkdaşlığın bütün region ölkələri üçün səmərəliliyinin artırılmasının əhəmiyyətindən bəhs edib. Millət vəkili əsası Heydər Əliyev tərəfindən qoyulan Xəzərin qlobal və regional əhəmiyyətli enerji layihələri ətrafında sabit inkişaf strategiyasının bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib.

"BP-Azərbaycan" şirkətinin vitse-prezidenti Bəxtiyar Aslanbəyli "Xəzər dənizində neft-qaz layihələri" mövzusunda çıxış edərək, Xəzər hövzəsinin neft-qaz layihələrinin dünya miqyasında artan əhəmiyyətinə diqqət çəkərək, mövcud zəmində xəzəryanı ölkələrin qarşılıqlı fayda verəcək regional və qlobal əhəmiyyətli əməkdaşlığınn gücləndirilməsindən bəhs edib. O, həmçinin, Xəzər hövzəsi neftqaz layihələrinin XXI əsrdə ən iqtisadi səmərəli və strateji enerji layihələrindən olduğunu tədbir iştirakçılarının nəzərinə çatdırıb. AMEA-nın şöbə müdiri, professor Rəna Mirzəzadə "Xəzəryanı ölkələrdə elmi-innovativ əməkdaşlığın davamlı inkişafının əsasları" mövzusunda dəyirmi masanın aktuallığına diqqət çəkərək bildirib ki, Xəzəryanı ölkələr elmi-innovativ və humanitar əməkdaşlığı da artırmalıdır. Belə əməkdaşlığın həm də regional iqtisadi və qlobal əhəmiyyətli layihələrə müsbət təsir göstərdiyini bildirən professor gələcək elmi strateji perspektivlərin vacibliyindən danışıb.

Siyasi ekspert Rəfail Becanov "Xəzər regionunda inteqrasiya və regional əməkdaşlıq" mövzusunda inteqrasiya və əməkdaşlıq ətrafında həyata keçirilən layihələrin həm də regional təhlükəsizlik və sabit əməkdaşlığa böyük dəstək olduğunu qeyd edib. O, enerji təhlükəsizliyinin davamlı təmin edilməsi istiqamətində hərtərəfli və çoxpilləli əməkdaşlıq formalarının axtarışlarının daim gücləndirilməsi vacibliyini vurğulayıb.

Fəlsəfə doktoru, ekspert Hüseyn İbrahimov "Xəzər regionu: Beynəlxalq iqtisadi və mədəni maraqlar" mövzusunda çıxış edərək, Xəzər regionu və bu zəmində iqtisadi-mədəni maraqların əlaqələndirilməsi məsələlərindən bəhs edib, mövcud mədəni əlaqələrin daha da gücləndirilməsinin iqtisadi əməkdaşlıqda oynayacağı rola diqqət çəkib.

"Teleqraf" Media Qrupunun rəhbəri Aynur Camalqızı "Xəzər hövzəsi və informasiya təhlükəsizliyi" kontekstində Xəzərətrafı ölkələrin media qurumlarının əməkdaşlığının vacibliyini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Tədbirin sonunda çıxışlar ətrafında müzakirələr aparılıb. Müzakirələrdə "Trend" İnformasiya Agentliyinin direktor müavini, siyasi şərhçi Arzu Nağıyev, iqtisadçı ekspert Vüqar Bayramov, "Azpress.az" İnformasiya Agentliyinin rəhbəri Rasim Sadıxov, "Bakı-Xəbər" qəzetinin təsisçisi, siyasi şərhçi Aydın Quliyev və BMAM-ın eksperti Ramin Səmədov çıxış edib.

**Baki-xeber.com**

**Bir müddət əvvəl Ermənistanın Baş naziri Nikol Paşinyan Dağlıq Qarabağ münaqişəsinin həllinin birbaşa Rusiyadan asılı olduğuna dair fikir səsləndirib. Rusiyanın Ermənistandakı səfiri son açıqlamasında Paşinyanın fikirlərini tam şəkildə təkzib edib. Səfir Sergey Kopırkin deyib ki, Rusiya davamlı danışıqlar prosesinin qurulması üçün hər zaman gərginliyin artmasına qarşı çıxıb:**



# Paşinyan müharibə məsuliyyətini Rusiyanın üstünə atmaq cəhdinə qəti cavab aldı...

***Nəzakət Məmmədova:** ”Rusiya fürsət düşdükcə Paşinyanı təkzib edəcək, onu vuracaq, nüfuzdan salacaq”*

"Lakin yekun nəticədə aydındır ki, problemin həlli münaqişə tərəflərinin məsələsidir. Qarabağ münaqişəsinin tənzimlənməsində hər şeyin Rusiyadan asılı olduğunu söyləmək düzgün deyil". Münaqişə zonasında son günlər gərginliyin artması məsələsinə münasibət bildirən diplomat Rusiyanın ATƏT-in Minsk Qrupu həmsədrliyi formatında fəaliyyət göstərdiyini, həmçinin, tərəflər arasında görüşlərin təşkili üçün ayrıca addımlar atıldığını qeyd edib: "Rusiyanın roluna balanslı yanaşmaq lazımdır. Moskva aktivdir, ancaq o, tərəflərin rolunu əvəz edə bilməz".

Rusiyanın Ermənistandakı səfirinin verdiyi bu açıqlamanı Paşinyana vurulan "tərs şillə" kimi qəbul etmək olarmı? **Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Rusiya ilə Paşinyanın münasibətlərinin yaxşı olmadığı aydındır və bu vəziyyət Paşinyan hakimiyyətdə olduğu dövr boyunca davam edəcək:** "Çünki Paşinyan məhz Rusiyanın Ermənistandakı mövqelərindən onu sıxışdırmaqdan ötrü ABŞ tərəfindən "rəngli inqilab" yolu ilə hakimiyyətə gətirilib. Rusiya ilə münasibətləri yaxşılaşdırmaq üçün Paşinyanın bir yolu var - onu hakimiyyətə gətirən qüvvələrə xəyanət edib, Rusiyanın tərəfinə keçmək. Təbii ki, o bunu edə bilməz. Odur ki, Rusiya fürsət düşdükcə Paşinyanı təkzib edəcək, onu vuracaq, nüfuzdan salacaq və s. Paşinyanın münaqişənin həllinin Rusiyadan asılı olduğunu deməsi məsuliyyəti bilavasitə öz üzərindən atıb, danışıqlar prosesinin uzanmasının, sülhə nail olunmamasının səbəbkarının Rusiya olduğuna işarədir. Rusiya səfiri isə, öz növbəsində, münaqişənin həllinin tərəflərdən asılı olduğunu deməklə, Paşinyanı təkzib edərək, onun məsuliyyətdən yaxa qurtarmayacağı mesajını ötürmüş ola bilər".

Politoloqun sözlərinə görə, görünən budur ki, Paşinyan və Rusiya heç biri məsuliyyəti üzərinə götürüb münaqişənin həllində irəliyə doğru addım atmaq istəmir: "Rusiya bunu edərsə, Qarabağ kartı əlindən çıxacaq, Paşinyan edərsə, Ermənistan və diaspor arasında nüfuzunu, hakimiyyəti də itirəcək. Odur ki, tərəflər siyasi iradə ortaya qoya bilmədikləri üçün, Qarabağ məsələsindən yalnız birbirinə qarşı arqument kimi istifadə edirlər və bu da münaqişənin sülh yolu ilə həlli ehtimalını sıfıra endirir. Rusiyanın onun nüfuz dairəsinə daxil olan ölkələrdə Amerikanın dəstəyilə, çevriliş yolu ilə hakimiyyətə gətirilmiş şəxslərə qarşı zəngin mübarizə təcrübəsi var.

Paşinyan bu baxımdan xüsusi fərqlənən, fövqəlgücə malik bir şəxs deyil və Rusiya onu hələlik dezinformasiya, təkzibetmə yolu ilə nüfuzdansalma və s. vasitələrlə diskreditasiya etməyə üstünlük verir, çünki Paşinyan bir sıra addımları ilə özünü Rusiyanın maraqlarını da nəzərə almış kimi göstərir. Yəni hazırda onlar arasında yumşaq güc, söz savaşı gedir.

Lakin o, müəyyən radikal addımlar atsa, məsələn, deputat olduğu dövrdə təklif etdiyi kimi, ölkəsinin KTMT, Avrasiya İqtisadi Birliyinə üzvlükdən çıxması, eləcə də Rusiya qoşunlarının Ermənistandan çıxarılması, Qarabağ münaqişəsinin ABŞ-ın planı əsasında həlli və s. addımlar atsa, Rusiya dərhal, nə yolla olursa-olsun, onu hakimiyyətdən uzaqlaşdıracaq. Hələ ki, Rusiya-Paşinyan gərginliyi təkzibetmə çərçivəsindədir".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Məlum olduğu kimi, Qazaxıstan Prezidenti Qasım-Jomart Tokayev "Ermənistanın səsi" qəzetinə müsahibəsində "Ermənistanla tarix və hətta dil baxımından ortaq nöqtələrimiz çoxdur. Ona görə də mən gələcək əməkdaşlığa optimist yanaşıram" deyib.**



# Qazaxıstan Prezidentinin qazax-erməni identikliyi barədə sözləri Ermənistanda da təəccüblə qarşılanır...

***Mübariz Əhmədoğlu:** ”Qazaxlarla ermənilər arasında tarixi və dil baxımından bağlantı yoxdur”*

Onun bu açıqlaması təəccüb doğurub. Məsələ ondadır ki, qazax dili ilə erməni dili arasında heç bir oxşarlıq yoxdur. Bəlkə də Tokayev Sovet dövründə Ermənistanla ortaq məsələlər haqqında danışıb, amma erməni mətbuatı bunu təhrif edib. Ancaq belə olsaydı, o zaman Qazaxıstan tərəfi bunu təkzib edərdi. Ancaq qəribədir ki, Qazaxıstan bunu təkzib etmir. Yeri gəlmişkən onu da qeyd edək ki, onun bu fikirləri, "Forbes-Qazaxıstan" nəşrində dərc olunub.

Ermənilərin özləri belə Qazaxıstanın yeni Prezidentinin sözügedən fikirlərindən təəccüblənirlər. Erməni mətbuatı yazır ki, bütün bunlar qəribədir. Çünki Tokayev bütün dünyaya kifayət qədər ciddi bir alim kimi təqdim edildi. Erməni mətbuatı yazır ki, Tokayev Nursultan Nazarbayevin siyasi uşağıdır. Belə olan halda, Tokayevin bu cür açıqlama ilə çıxış etməsi erməniləri daha da təəccübləndirir. Hətta ermənilər bunu özlərinə ar bilirlər. Hesab edirlər ki, Ermənistan guya Qazaxıstandan fərqli olaraq, demokratik ölkədir.

Bütün bu deyilənlərin fonunda, Qazaxıstan niyə səslənən fikirlərlə bağlı təkziblə çıxış etmir?

**Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlu buna bir neçə aspektdən yanaşdı:** "Qazaxlarla ermənilər arasında

## ”Bu cür açıqlamalar ermənilərə stimul verir”

tarixi və dil baxımından bağlantı yoxdur. Çünki ermənilər bu ərazilərin sahibi deyil. Bu ərazilərdə müxtəlif türkdilli tayfalar yaşayıb. Ermənistanda yaşayan türkdilli tayfalardan biri də qıpçaqlar olub. İndi İrəvandakı Matenadaran meydanında bir sıra qıpçaq əsərləri var. Ermənilər son dövrlərdə o əsərlərdən istifadə edərək Qazaxıstanla əlaqələri genişləndirmək istəyirlər. İstəyirlər ki, Qazaxıstandan neft alsınlar və s. Təəssüflər olsun ki, Qazaxıstan da buna meyllidir. Məsələ ondadır ki, Ermənistanın Qazaxıstandakı keçmiş səfiri öz ölkəsində yanacaqdoldurma mərkəzi açmaq istəyir. Bu cür açıqlamalar ermənilərə stimul verir. Baxmayaraq ki, bəzi ermənilər Tokayevin o açıqlamasını təəccüblə qarşılayırlar. Hesab edirəm ki, bu məsələni gündəmdə saxlamaq lazımdır.

Biz sübut etməliyik ki, Ermənistan ərazisində tarixən qıpçaq türkləri yaşayıb, ermənilər bura gəlmə olublar. Onu da qeyd edim ki, Qazaxıstanla Ermənistan arasında əlaqələr var. Bu əlaqələr haçansa bizim maraqlarımıza toxuna bilər. Yəni bu tək Tokayevin səsləndirdiyi fikirlər deyil. Ermənistanın hazırkı prezidenti Armen Sarkisyanın Qazaxıstanın siyasi elitası ilə çox intensiv əlaqəsi var. Ona görə də bütün bunları nəzərə almalıyıq".

***Vidadi ORDAHALLI***

**Qədim Azərbaycan dövləti olan Urartunun tarixinin saxtalaşdırılması sahəsində ermənilər son bir neçə ildir müxtəlif işlər görürlər. Qafaza yad olan və bu ərazi ilə heç bir əlaqəsi, tarixi bağlılığı olmayan ermənilərin Urartuya iddia etməsi həqiqətən də gülüncdür.**

# Ermənistan özünü qədim Urartu mədəniyyətinə bağlamaqdan əl çəkmir - bu dəfə rus muzeyini də özünə qoşub...

Tarixçilər qeyd edirlər ki, tarixi xronoloji ardıcıllıqla saxtalaşdırmaqda davam edən və özlərinə aid olmayanı mənimsəmək cəhdlərindən əl çəkməyən ermənilərin uydurma yollarla sahib çıxmağa və erməniləşdirməyə çalışdıqları Urartu dövlətinin gerçək sahibi Azərbaycandır.

Bu həqiqəti qəbul etmək istəməyən ermənilər tarixi saxtalaşdırmaqla bağlı fəaliyyətlərini davam etdirməkdədirlər. Bu dəfə onlar öz saxta əməllərini Rusiyada gerçəkləşdirmək istəyirlər. Söhbət Ermənistanın Rusiyada Urartu sivilizasiyası ilə bağlı açmağa hazırlaşdığı sərgidən gedir.

Rusiya Prezidentinin mədəni əlaqələr üzrə köməkçisi Mixail Şvidkoy mətbuata bildirib ki, Rusiyanın A.Puşkin Muzeyi ilə Ermənistanın Milli Muzeyi arasında "Urartu sivilizasiyası"na aid sərginin keçirilməsi ilə əlaqədar razılıq əldə olunub. Hətta onun sözlərinə görə, Urartu mədəniyyəti ilə bağlı Rusiya muzeylərində kifayət qədər eksponat, fakt və materiallar var. Ermənistan mətbuatının yazdığına görə, M.Şvidkoy bu sərginin hər iki ölkənin seyrçiləri tərəfindən maraqla qarşılanacağını deyib.

Məsələ burasındadır ki, Urartunun ermənilərlə heç bir bağlılığı olmadığı halda, saxta erməni təbliğatı nəticəsində Urartu mədəniyyəti ermənilərin adları ilə təqdim ediləcək.

Tarixçilərin bildirdiyinə görə, Rusiya muzeylərində Urartu dövləti ilə bağlı saxlanan eksponatlar Azərbaycan ərazilərindən aşkar olunan arxeoloji örnəklər, əşyalar və sairdir. Onlar hesab edirlər ki, Çar Rusiyası Azərbaycan ərazilərini qəsb etdikdən sonra müxtəlif dövrlərə aid olan Azərbaycan dövlətlərinə aid arxeoloji tapıntıları, nümunələri Rusiya muzeylərinə daşıyıb. Müasir Ermənistanın Azərbaycan torpaqları üzərində qurulduğuna diqqət çəkən ekspertlər hesab edirlər ki, Rusiya tərəfi Urartu mədəniyyətini, sivilizasiyasını ermənilərə bağlamaqla və belə saxta bir sərginin məhz Rusiyada təşkil edilməsinə şərait yaratmaqla səhvə yol verir, tarixi təhrif edir.

Tarix üzrə fəlsəfə doktoru, tanınmış tarixçi-alim Faiq Ələkbərli "Bakı-Xəbər"ə bildirdi ki, belə bir sərginin Rusiyanın dəstəyilə təşkil edilməsi təəssüf doğurur. "Urartunun, ya da Urartu sivilizasiyasının ermənilərlə əlaqəsi ancaq uydurmalardır. Bu cür uydurmalar haylar tərəfindən dəfələrlə səsləndirilib. Onlar Ermənistan xalqının tarixini qədimləşdirmək niyyətindədirlər. Üstəlik, Azərbaycan türk tarixinin üstündən xətt çəkmək istəyirlər. Hesab edirəm ki, ermənilərin türklərin və digər yerli xalqların tarixini mənimsəmələri heç bir nəticə verməyəcək".

F.Ələkbərlinin qeyd etdiyinə görə, yenidən bu cür məsələlərin gündəmə gətirilməsi ermənilərin öz tarixini qədimləşdirmək istəyindən irəli gəlir. Onun sözlərinə görə, onların Urartu məsələsinə qayıtması və Urartunu özlərinə aid etmələrinin heç bir əsası yoxdur. "Şübhəsiz ki, ermənilər bu məsələdə Rusiyanın mədəniyyət mərkəzlərini, xüsusən də Puşkin adına Muzeyi bu işə qatmaqla, sadəcə, siyasi məqsəd güdürlər. Ermənilərin istər Azərbaycan türklərinin, istərsə də digər Qafqaz xalqlarının tarixini, mədəniyyətini mənimsəməsi heç bir halda öz bəhrəsini verə bilməz. Yəni onsuz da müasir Ermənistan xalqının kökünün necə qarışıq olması hər kəsə bəllidir. Sadəcə, qarışıq xalqlardan törəmiş indiki Ermənistan xalqını qədimləşdirmək istəyirlər. Onların bu cəhdləri faydasızdır. Çünki Urartu dövləti, Urartu sivilizasiyası ilə bağlı bütün araşdırmalar göstərir ki, burada daha çox türk xalqlarının, xüsusən də Azərbaycan türklərinin və eləcə də digər Qafqaz xalqlarının tarixi mədəniyyət izləri kifayət qədərdir. Urartu sivilizasiyası haqda danışarkən burada haylardan söhbət belə gedə bilməz. Onlar qıpçaq kökənli, sonradan qriqoryan məzhəbinə görə xristianlaşmış türklərin bir qisminə görə buna iddia edirlərsə, yenə də heç bir nəticə əldə edə bilməyəcəklər. Ona görə ki, onlar da məhz türk mənşəlidirlər. Yəni xristian qıpçaqların türk mənşəli olması və onların bir hissəsinin indiki Ermənistan xalqının tərkibində qalması, sadəcə olaraq, qriqoryan məzhəbinə görə haylaşması məlumdur. Bu anlamda onların Urartu sivilizasiyasına yiyələnmək istəyinin heç bir mənası yoxdur" - deyə F.Ələkbərli bildirdi.

***Faiq Ələkbərli:** "Ermənilər Rusiyanın mədəniyyət mərkəzlərini, xüsusən də Puşkin adına Muzeyi bu işə qatmaqla, sadəcə, siyasi məqsəd güdürlər"*



*"Urartu sivilizasiyası ilə bağlı bütün araşdırmalar göstərir ki, burada daha çox türk xalqlarının, xüsusən də Azərbaycan türklərinin və eləcə də digər Qafqaz xalqlarının tarixi mədəniyyət izləri kifayət qədərdir"*

Tarixçilərin verdiyi bilgiyə görə, Urartu adına ilk dəfə Assur çarlarının kitabələrində rast gəlinir. E.ə. XIII əsrin əvvəllərində I Salmanasara aid mətnlərdə Urartu adı tayfa ittifaqını bildirən Uruatri formasında işlədilir. E.ə. X-IX əsrlərin qovşağında II Adadnirariyə aid mətnlərdə Uratri terminə rast gəlinir. Bu adın Urartu forması isə e.ə. IX əsrdən işlədilir və "yuxarı ölkə" mənasını verir. Urartu dövləti e.ə. IX -VI əsrlərdə mövcud olmuş, əsasən Anadolu yaylasının bir hissəsini, Cənubi Qafqazın qərb rayonlarını, Van, Urmiya və Göyçə gölləri arasındakı ərazini əhatə edirdi. Dil və mədəniyyət baxımından urartulular hurri-het ənənələrini davam etdirirdilər.

Melikişvili qeyd edir ki, Urartu və hurri dilləri arasında qohumluq əlaqələri artıq şübhə doğurmur. Buna baxmayaraq, mif yaradıcılığını davam edən erməni müəlliflər onlara heç bir aidiyyəti olmayan qədim Urartu irsinə sahib çıxmağa çalışırlar.

Tarixçilərin sözlərinə görə, ermənilərin tarixi saxtalaşdıraraq Urartuya sahib çıxmaq istəklərini motivasiya edən səbəblərdən biri onların tarixin erkən dövrlərində öz dövlətçilik ənənələrindən məhrum olmaları və dünyanın müxtəlif ölkələrinə səpələnmələri ilə bağlıdır. Onlar, həmçinin, vurğulayırlar ki, Urartu və regionun digər qədim dövlətlərini "özəlləşdirmək" ermənilərə daha çox öz qonşularına qarşı əsassız ərazi iddiaları irəli sürərkən tarixi hüquq anlayışına istinad etmək üçün lazımdır.

Onların heç bir vaxt bu iddialarını reallaşdıra bilməyəcəklərini deyən tarixçilər hesab edirlər ki, Urartu sivilizasiyası ilə hayların yaxından-uzaqdan heç bir əlaqəsi yoxdur.

***İradə SARIYEVA***

# Türkiyənin yığcam kürd bölgələrində Ermənistanın fəallaşması qorxulu faktora çevrilir...

**Son vaxtlar Türkiyə və həmin ölkənin adı olan bəzi məsələlərdə erməni təbliğatı güclənib. Xüsusilə də Türkiyənin kürd əsilli vətəndaşlarının kompakt yaşadığı ərazilərdə ermənilərlə sıx təmaslar qurulmağa meyllər nəzərə çarpır. Azərbaycanla həmsərhəd olan və soydaşlarımızın çoxluq təşkil etdiyi Qars və İğdır şəhərlərində son seçkidən sonra bələdiyyələrə rəhbərlik kürdlərin partiyası sayılan HDP-nin əlinə keçib.**




## *Rauf Zeyni: "Hesab edirəm ki, bu istiqamətdə işlərin davamı zəruridir"*

Onlar da bu səlahiyyətdən istifadə edərək, ermənilərdən ibarət nümayəndə heyətlərini ölkələrinə qonaq çağırır, ermənilərə böyük sayğı nümayiş etdirirlər.

Bundan əlavə, Dağlıq Qarabağdakı qondarma erməni rejiminin keçirdiyi saxta futbol yarışmasında Türkiyənin Van şəhərindən olan bir komandanın da "Qərbi Ermənistan" adı ilə təmsil olunduğu bildirilir. Məlum bölgələrdə erməni-kürd işbirliyini zəiflətmək, lazımi təbliğat aparmaq üçün Azərbaycan QHT-lər səviyyəsində hansı işləri görə bilər, necə layihələrin icra olunması məqsədəuyğun sayılmalıdır?

**Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycan müstəqilliyini əldə edəndən sonra həm regionda, həm də dünyada sülhün bərqərar olması istiqamətində mühüm addımlar atıb:** "Bu istiqamətdə həm dövlət, həm də qeyri-hökumət təşkilatları səviyyəsində ciddi fəaliyyət ortaya qoyulub. Bir çox hallarda Azərbaycanın tolerantlığından sui-istifadə edən qüvvələr də olur. Biz xüsusilə də qonşu ölkələrlə əməkdaşlığın dərinləşməsinə xüsusi önəm veririk. Bizim Türkiyə ilə bu yöndə əməkdaşlığımız ciddidir. Amma görünən budur ki, çatışmayan məqamlar da mövcuddur. İl ərzində sistemli və dayanıqlı münasibətlər davam etməlidir. Mən QHT-lərin qarşılıqlı əməkdaşlığını nəzərdə tuturam. Dediyiniz bölgələr bizim üçün də böyük əhəmiyyət daşıyır. Həmin ərazilərdə milli birliyin təbliği, Azərbaycan-Türkiyə qardaşlığının daha da möhkəmlənməsinin təbliği ilə bağlı ciddi işlərin görülməsinə zərurət var. İndiyə qədər həmin bölgələrdə bizim QHT-lər Türkiyədəki tərəfdaşları ilə bir çox layihə icra edib. Bunu artırmaq və davam etdirmək lazımdır. Məndə olan məlumata görə, İğdır, Qars və Vanda bu il də QHT-lərin xəttilə ciddi layihələrin icrası gözlənir. Keçən il biz İğdırda Azərbaycan Xalq Cümhuriyyətinin yubileyi ilə bağlı çox möhtəşəm tədbir keçirdik. Həmin tədbirdə Türkiyə rəsmiləri, millət vəkilləri də iştirak etdilər.

*"Bunun Türkiyədə məkrli niyyətlər həyata keçirmək istəyənlərin qarşısının alınmasında müstəsna əhəmiyyəti olacaq"*

BDM adlı QHT həmin bölgədə çox fəal işlər görür. Hətta həmin bölgədə olan bəzi anlaşılmazlıqların aradan qaldırılmasına yardımçı olub.

Hesab edirəm ki, bu istiqamətdə işlərin davamı zəruridir və bunun Türkiyədə məkrli niyyətlər həyata keçirmək istəyənlərin qarşısının alınmasında müstəsna əhəmiyyəti olacaq".

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyan hakimiyyəti Ermənistan - qondarma "DQR" ziddiyyətləri barədə informasiyalardan niyə bu qədər narahatdır...

**Ermənistan hakimiyyəti ilə Azərbaycanın işğal altında olan ərazilərindəki qondarma rejimin liderləri arasında uçurum getdikcə dərinləşir. Get-gedə tərəflər arasında qarşıdurmalar barədə daha çox informasiya yayılır. Ancaq görünən odur ki, Paşinyan hakimiyyəti bu informasiyalardan bərk narahatdır. Belə informasiyalar yayılan kimi, tez onu təkzib etməyə çalışırlar.**



## *Əli Orucov: "Paşinyanın belə məlumatlardan narahat olmasının başlıca səbəbi hakimiyyəti itirmək qorxusudur"*

Bu günlərdə Paşinyan hökumətinin qondarma "DQR"ə maliyyə yardımını kəsməsi barədə xəbər yayılıb. Məlumata görə, Paşinyan Dağlıq Qarabağa maliyyə yardımının göstərilməsi üçün qondarma rejimin "təhlükəsizlik şurasının katibi" general Vitali Balasanyanın istefası şərtini irəli sürüb. Qondarma "prezident" Bako Saakyan Balasanyandan Ermənistan hakimiyyətinin tələbini yerinə yetirib, istefa verməyi istəsə də, keçmiş səhra komandiri bu addımı atmaqdan imtina edib. Lakin son anda Saakyan istəyinə nail olub. Belə ki, Balasanyan 11 iyunda istefa ərizəsini yazıb. Paşinyan hakimiyyəti hər vasitə ilə maliyyə sanksiyası ilə bağlı məlumatları təkzib edir.

Bəzi erməni mətbuatı bütün bunları Ermənistan tərəfdən Dağlıq Qarabağa tətbiq edilmiş sanksiya kimi qiymətləndirir. Bundan əvvəl Paşinyan Dağlıq Qarabağın "rəhbərliyini", o cümlədən, Balasanyanı Qarabağda yeni müharibə qızışdırmaq planlarında ittiham etmişdi. Onun bildirdiyinə görə, həmin qüvvələr müharibəni başladıb "bəzi əraziləri verməyi" və buna görə Ermənistan hakimiyyətini günahlandırmağı planlaşdırırlar.

Bu arada separatçı qurum "rəhbərliyində" təmsil olunan digər yüksək vəzifəli məmur Artur Aqabekyan da postundan kənarlaşdırılıb. O, "DQR" "prezidenti"nin müşaviri idi. Bundan öncə isə separatçıların "hərbi rəhbərlərindən" biri olub. A.Aqabekyan da Paşinyan hökumətini kəskin tənqid edib. O, qarabağlıları mitinqlərə çıxaraq Ermənistanın yeni hakimiyyətinin "xəyanətkar siyasəti"nə etiraz etməyə çağırıb. Bəzi KİV-in məlumatına görə, N.Paşinyan həmin şəxslərin, həmçinin, "prezidentin köməkçisi" David Babayanın vəzifədən çıxarılmasını şərt kimi qoyub.

Bütün hallarda, Ermənistanla Dağlıq Qarabağ arasında münasibətlərin kəskinləşməsi göz önündədir. Tərəflərin bir-birinə inamsızlığının artması fonunda yaxın vaxtlarda vəziyyətin daha da pisləşəcəyini gözləmək olar.

Maraqlıdır, Paşinyan hakimiyyəti iki qruplaşma arasında dərinləşən ziddiyyətlərlə bağlı yayılan məlumatlardan niyə bu qədər narahatdır?

*"Hər an Kreml separatçı "Qarabağ klanı"na stavka edib onun hakimiyyətini devirə bilər"*

**Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucov bunu bir sıra amillərlə əlaqələndirdi: "Ona görə narahatdırlar ki, bu, ziddiyyətlərin olmasının açıq etiraf edilməsi anlamına gəlir.** Bu da Paşinyan hakimiyyəti üçün yaxşı perspektiv vəd etmir. O mənada ki, bu, ermənilərin birliyinə zərbə vurmaq anlamına gəlir. Paşinyan qorxur ki, cəmiyyət onu buna görə ittiham edər.

Ancaq Paşinyanın belə məlumatlardan narahat olmasının başlıca səbəbi hakimiyyəti itirmək qorxusudur. Klanlararası konfrantasiyanın dərinləşməsi Ermənistanda hərbi çevrilişə belə gətirib çıxara bilər. Paşinyan yaxşı bilir ki, Rusiya hakimiyyətinin ona qarşı münasibəti yaxşı deyil. O fikirləşir ki, hər an Kreml separatçı "Qarabağ klanı"na stavka edib onun hakimiyyətini devirə bilər. Bu səbəbdən iki qruplaşma arasında yaşanan ziddiyyətlərlə bağlı yayılan informasiyalardan bu qədər narahatdırlar".

***Vidadi ORDAHALLI***

# Fransa şəhərləri ilə Qarabağ separatçılarının məhkəmədə ləğv edilmiş "dostluq xartiyalarının" sayı 5-ə çatdı

## *Vaqif Abışov: "Son zamanlara qədər Fransa Azərbaycanla bağlı belə müsbət addım atmamışdı"*

**Ermənistan Silahlı Qüvvələrinin işğal altında saxladığı Azərbaycan torpaqlarında ermənilər tərəfindən qanunsuz əməllərin davam etdirildiyi məlumdur. Avropa ölkələrindəki erməni lobbisinin təsiri və təhriki ilə Fransanın və digər ölkələrin şəhərləri ilə Azərbaycanın işğal altında olan bir sıra şəhərləri "qardaşlaşdırılıb".**

Ermənilərin həyata keçirdikləri bu məkrli siyasətin ifşa edilməsi istiqamətində dəfələrlə Azərbaycan haqlı olaraq öz mövqeyini bildirib. Azərbaycanın bu sahədə həyata keçirdiyi məqsədyönlü işlər artıq bəhrə verməkdədir. Belə ki, "qardaşlaşma" aktları pozulmağa başlayıb. Bu hərəkatın ermənilərə daim böyük dəstək verməklə seçilən Fransada başlaması diqqəti çəkir. Bu ölkənin müxtəlif məhkəmələri tərəfindən qondarma "Dağlıq Qarabağ Respublikası"nın şəhərləri ilə "qardaşlaşan" bir neçə Fransa şəhərinin "qardaşlaşmasını" pozmaqla bağlı qərar qəbul edilib. Belə ki, Fransanın Qrenobl şəhərinin inzibati məhkəməsinin qərarı ilə Dağlıq Qarabağdakı qondarma rejimin nümayəndələri ilə Fransanın şəhərləri, kommunaları və bölgələri daxil olmaqla, qəsəbələrlə imzaladığı daha dörd "dostluq nizamnaməsi" ləğv edilib.

Bu qərar 29.05.2019-cu il tarixində Fransanın Serji-Pontuaz inzibati tribunalı tərəfindən qəbul edilmiş birinci qərarın məntiqi davamı sayılır.

Qeyd edək ki, mayın 30-da Fransanın Val d'Oise Departamentinin İnzibati Məhkəməsi Arnuvil şəhəri ilə Dağlıq Qarabağdakı erməni separatçıları arasında imzalanan "Dostluq Xartiyası"nı ləğv edib. "Bakı-Xəbər"in yazdığına görə, sözügedən "sənəd" Fransanın Arnuvil şəhərinin meri Paskal Dol ilə hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Azərbaycanın Xocavənd rayonunun Şeher yaşayış məntəqəsinin separatçı rəhbəri arasında imzalanmışdı.

Onu da vurğulayaq ki, Dağlıq Qarabağa qanunsuz səfər edərək orada separatçılarla görüşən və "sənəd" imzalayan merə qarşı ittiham Fransa hökuməti tərəfindən ölkənin regionları ilə əməkdaşlığa dair qanunun pozulması maddəsi ilə irəli sürülüb. Şikayətə baxan Fransanın Val d'Oise Departamentinin Cergy-Pontoise İnzibati Məhkəməsi fransalı merin əleyhinə qərar verib.

Məlumat üçün qeyd edək ki, 2018-ci ilin oktyabrında Fransanın Sent Etyen şəhərinin meri və Arnuvil bələdiyyəsinin rəhbəri Azərbaycanın icazəsi olmadan Dağlıq Qarabağa qanunsuz səfər ediblər və separatçılarla bir sıra görüşlər keçiriblər. Bundan sonra Fransanın Bakıdakı səfiri Oreliya Buşe Azərbaycan Xarici İşlər Nazirliyinə çağırılıb. Ona Fransa nümayəndələrinin Azərbaycanın maraqlarına, onun suverenliyi və ərazi bütövlüyünə toxunan bir sıra addımları, o cümlədən, bu yaxınlarda Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsinə Fransanın Sent Etyen şəhərinin meri və Arnuvil bələdiyyəsinin rəhbəri tərəfindən edilən qanunsuz səfərlərlə bağlı rəsmi etiraz bildirilib.

Qeyd edildiyi kimi, artıq Fransa nümayəndələrinin bu kimi addımlarına hüquqi və siyasi qiymətlər verilib, Fransa hökuməti bu ölkənin fiziki və hüquqi şəxslərinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş fəaliyyətinin qarşısının alınması üçün effektiv tədbirlər görməyə çağırılıb və qarşı tərəfə Azərbaycan XİN-in rəsmi notası təqdim olunub.

Bu prosesin Azərbaycanın xeyrinə getdiyi məlumdur. Fransa məhkəməsinin çıxardığı ədalətli qərar nəticəsində beş "qardaşlaşma" hadisəsinə xitam verilib.

Heç şübhəsiz ki, Fransa İnzibati Məhkəməsinin qətnaməsi bir neçə cəhətdən çox əhəmiyyətlidir və bu həm də Fransadakı erməni lobbisinə vurulan ağır bir zərbədir. Ermənilər separatçı rejimin işğal altında saxladığı şəhərlərimizi Fransa şəhərləri ilə "qardaşlaşdırmaqla" qondarma "DQR"i tanıtmaq məqsədi güdür.

Məlum olduğu kimi, Fransanın özündə də bu saxta "qardaşlıq xartiyaları"na etiraz edənlər var və olub. Məsələn, Fransa Parlamentində Fransa-Azərbaycan dostluq qrupunun üzvü Jan-Lük Reitzer birmənalı şəkildə Dağlıq Qarabağın hazırda işğal olunmuş ərazi olduğunu bildirir və bu əlaqələrin qəti əleyhinə olduğunu deyir: "Beynəlxalq hüququn qanunları var və onlara riayət etməmiz gərəkdir.





## *"Fransa ATƏT-in Minsk Qrupunun üzvü kimi münaqişənin nizamlanmasına çalışmalıdır"*

Fransa xarici işlər nazirinə məktub ünvanlayaraq Fransanın bir sıra şəhərlərinin başçılarının Dağlıq Qarabağ bölgəsinin şəhərləri ilə əlaqələr qurduqları, səfərlər etdikləri, dostluq xartiyaları imzaladıqları barədə məlumatlandırmışam və bu əlaqələrin Fransa qanunlarına zidd olduğunu vurğulamışam. Bu yaxınlarda (2018-ci ilin oktyabrı-red.) Fransanın Sant-Etyen (Saint-Etienne) şəhəri ilə Dağlıq Qarabağda yerləşən şəhərlərdən biri ilə əlaqələr qurulub. Mən Sant-Etyen şəhərinin merinə məktub yazaraq bunun beynəlxalq hüquq normalarına və Fransa Xarici İşlər Nazirliyinin qərarlarına zidd olduğunu bildirmişəm. Məktubuma Fransa xarici işlər naziri Jan-İv Lö Dryanın mənim məktubumu cavablandıraraq beynəlxalq hüququn qanunlarını pozan bu cür ikitərəfli əlaqələrin məsləhət görülmədiyini təsdiqləyən məktubunun suretini də əlavə etmişəm. Hələlik heç bir cavab almamışam. Sant-Etyen şəhərinin merinə göndərdiyim məktubumun suretini bir sıra orqanlara da göndərmişəm ki, qoy bilsinlər, parlamentarilər beynəlxalq ictimaiyyət tərəfindən tanınmamış ərazilərlə əlaqələr qurmaqla digər ölkələrin suverenliyinə və ərazi bütövlüyünə xələl gətirən davranışlara yol verən bir sıra şəhər rəhbərlərinə qayda-qanunu xatırladır".

Daha bir Fransa rəsmisi, Fransa Senatında Fransa-Qafqaz dostluq qrupunun, Xarici işlər, müdafiə və silahlı qüvvələr üzrə komissiyanın üzvü, ölkənin keçmiş müdafiə və ədliyyə üzrə dövlət katibi, senator Jan-Mari Bokel deyir ki, vaxtilə Müluz aqlomerasiyasının prezidenti olduğu zaman özü də Azərbaycanın şəhərlərindən biri ilə dostluq xartiyası imzalayıb: "Mən Azərbaycanın dostuyam. Əslində, istənilən şəhər hətta ən konfliktual yerlərlə belə dostluq xartiyaları imzalaya bilər. Bu qanunsuzluq deyil. Bu bir siyasi seçimdir. Lakin mənim nəzərimdə Dağlıq Qarabağın şəhər, yaxud kəndləri ilə belə dostluq xartiyalarının imzalanması düzgün deyil. Çünki bu zaman səfərlər, birgə bəyannamələr, bayraqlar vasitəsilə bu, həmin ərazinin tanınması kimi başa düşülə bilər ki, bu da düzgün deyil. Çünki bu ərazi beynəlxalq ictimaiyyət tərəfindən tanınmayıb. Mən Azərbaycanın dostu kimi deyirəm ki, belə dostluq xartiyaları qanunsuz deyil, lakin müəmmalıdır. Deyərdim ki, Qarabağ ərazisindəki şəhərlərlə dostluq xartiyalarının imzalanması bir mübarizə üsuludur ki, bu da, yuxarıda toxunduğum kimi, diaspor məsələsinə gətirib çıxarır. Bir daha vurğulamaq istəyirəm ki, bu şəxslər "malımala" qatmamalıdırlar".

Fransanın Qrenobl şəhərinin inzibati məhkəməsinin qərarı ilə Dağlıq Qarabağdakı qondarma rejimin nümayəndələri ilə Fransanın şəhərləri, kommunaları və bölgələri daxil olmaqla, qəsəbələrlə imzaladığı daha dörd "dostluq nizamnaməsi"nin ləğv edilməsinin müsbət addım olduğunu deyən AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru, tarixçi-alim Vaqif Abışov qeyd etdi ki, artıq Fransa Dağlıq Qarabağ probleminin nizamlanması istiqamətində öz üzərinə götürdüyü öhdəliklərin məsuliyyətini anlamağa başlayıb. O hesab edir ki, ola bilsin, bundan sonra Fransada qondarma "Dağlıq Qarabağ Respublikası" ilə bağlı daha sərt sənədlər qəbul edilsin. Azərbaycanın uzun illərdir bu istiqamətdə həyata keçirdiyi işlərin müsbət nəticə verdiyini deyən V.Abışov Fransa məhkəmələrinin qondarma rejimin nümayəndələri ilə Fransanın müxtəlif şəhərlərinin merləri arasında imzalanan bu kimi sənədləri ləğv etməsinin müsbət irəliləyiş olduğunu dedi. "Mən də bu barədə mətbuatdan oxumuşam. Fransa, əlbəttə ki, BMT Təhlükəsizlik Şurasının üzvü kimi, Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Fransa yaxşı bilir ki, o torpaqlar Azərbaycanındır və işğal altında olan Azərbaycan şəhərlərinin Fransa şəhərləri ilə "qardaşlaşması" düzgün qərar deyil. Hesab edirəm ki, hansısa hadisə nəticəsində Dağlıq Qarabağdakı qondarma rejimin fəaliyyəti ilə bağlı bir beynəlxalq məhkəmə də qurula bilər. Fransa məsuliyyətdən yaxa qurtarmaq üçün belə bir qərar verər. Amma bir amili də nəzərə almaq lazımdır ki, Azərbaycan hökumətinin xarici siyasəti müsbət nəticə verir. Hesab edirəm ki, Fransa məhkəmələrinin bu barədə qərar qəbul etməsi ölkəmizin Fransa və digər ölkələrlə apardığı işin nəticəsdir. Bunun daha çox təsiri var. Son zamanlara qədər Fransa Azərbaycanla bağlı belə müsbət addım atmamışdı. Ancaq birdən-birə belə bir addım atması təsadüfi deyil. Əlbəttə, Fransa hökuməti yaxşı bilir ki, qondarma rejimin təhriki ilə Fransa şəhərlərinin işğal altında olan Azərbaycan şəhərləri ilə "qardaşlaşmasının" kütləvi hal almasının mənfi nəticələri ola bilər. Bu, ən azından, onun götürdüyü öhdəliklərə, eyni zamanda da missiyasına ziddir.

Fransa ATƏT-in Minsk Qrupunun üzvü kimi münaqişənin nizamlanmasına çalışmalıdır. Fransa məhkəməsinin qərarı ilə bu ölkənin müxtəlif şəhərlərinin merləri ilə hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altında olan separatçı rəhbərləri arasında imzalanan sənədlərin ləğv edilməsi xarici siyasətimizin uğurudur" - deyə V.Abışov qeyd etdi.

***İradə SARIYEVA***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# "Azərbaycan yetərincə güzəşt edib, Ermənistan qiymətləndirə bilməyib" - bəzi ermənilər qarışıq, dünya politoloqlarının qənaəti...

**Ərazi bütövlüyünün tezliklə bərpasını istəyən Azərbaycan bu istiqamətdə dünya ictimaiyyətinin artıq işğalçı Ermənistana qarşı konkret hərəkətə keçməsini, əməli addımlar atmasını tələb edir. Çünki uzun illərdir Ermənistan rəhbərliyi beynəlxalq ictimaiyyətin və hüququn tələblərini yerinə yetirməklə bağlı lazımi mövqe nümayiş etdirməyib.**

Bu da nəticədə Ermənistanın işğal siyasətinin davam etməsinə gətirib çıxarıb, regionda isə Dağlıq Qarabağ müharibəsinin istənilən an alovlanmasına uyğun şərait yaradıb.

Hesab edilir ki, Ermənistan təcavüz və işğalçılıq siyasətindən əl çəkmədiyi təqdirdə regionda heç də beynəlxalq ictimaiyyətin marağına cavab verməyən savaşın başlanması qaçılmaz olacaq. Məsələnin sülh yolu ilə tənzimlənməsi üçün isə Ermənistanın müvafiq addımlar atması əsas şərtdir. Belə addımların atılması məhz Ermənistana beynəlxalq təzyiqlərdən keçir. İndilikdə dünya ölkələri, o cümlədən ATƏT-in Minsk Qrupunun həmsədr dövlətləri belə hesab edir ki, münaqişə dinc müstəvidə həllini tapmalıdır. ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kent yenidən bu mövzuya toxunaraq vurğulayır ki, ABŞ Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini prioritet hesab edir. O bildirib ki, ölkəsi əvvəli kimi Minsk prosesinə sadiqdir: "Biz hesab edirik ki, bu münaqişənin həlli Azərbaycan və Ermənistanın təhlükəsizliyi və çiçəklənən gələcəyi üçün çox vacibdir. Həmkarım, amerikalı həmsədr Endryu Şefer bu yaxınlarda digər həmsədrlərlə birlikdə yüksək və nazirlər səviyyəsində görüşlərin təşkilini davam etdirmək üçün regionda səfərdə oldu. Biz bu uzunmüddətli münaqişənin həlli ilə bağlı səylərimizi güc tətbiq etməmə, ərazi bütövlüyü, bərabər hüquqluluq və xalqların öz müqəddəratını təyin etmə prinsipləri əsasında davam etdirəcəyik".

Fransanın Avropada Perspektiv və Təhlükəsizlik İnstitutunun əməkdaşı Patrisiya Lalond da vurğulayır ki, Paris Qarabağ münaqişəsinin tezliklə dinc müstəvidə həllini istəyir: "Ermənistandan, həmçinin erməni işğalı altındakı Dağlıq Qarabağ və ətraf 7 rayondan qovulmuş azərbaycanlı qaçqın və məcburi köçkünlər öz evlərinə qayıtmaq istəyir. Mən Azərbaycanda olarkən qaçqın və məcburi köçkünlərlə görüşmüşəm. Onlar öz evlərinə - Qarabağa dönmək istədiklərini bizə dönə-dönə söyləyirdilər. Bu mənada, məsələnin tez həlli vacibdir. Paris problemin dinc müstəvidə həllində maraqlıdır". O vurğulayıb ki, Azərbaycan dövlətinin qarşısında bu gün iki böyük məsələ durur: "Birincisi, məcburi köçkün qadınların geriyə - öz doğma torpaqlarına, evlərinə qayıtmasına nail olmaq, ikincisi isə Dağlıq Qarabağ münaqişəsini həll etmək, sülhə nail olmaqdır". Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov da Moskvanın münaqişənin sülh yolu ilə həllinə can atdığını vurğulayır.

Avropanın aparıcı dövləti olan Almaniyanın Bundestaqının vitse-prezidenti Tomas Operman da bildirib ki, sülh yolu ilə danışıqların mütləq nəticələri olmalıdır: "Müharibələrin sülh yolu ilə həllinə çalışmaq lazımdır. Dağlıq Qarabağ münaqişəsi 10 illərdir ki, davam edir, insanlar əziyyət çəkir, problemlərlə üzləşir. Biz ATƏT-in bu istiqamətdə sülh missiyasını dəstəkləyirik. Almaniya Federativ Respublikası münaqişənin həlli üçün əlindən gələni edir. Bizim Azərbaycanla və Ermənistanla normal münasibətlərimiz var. Ümid edirəm ki, bu münaqişə sülh yolu ilə həll ediləcək". Məsələnin sülh yolu ilə həllinə dair belə çağırışlar edilsə də, reallıqda görünən budur ki, münaqişənin dinc müstəvidə çözümünə ümid getdikcə azalır. Əsas səbəb də budur ki, beynəlxalq ictimaiyyətin çağırışlarına rəğmən, İrəvan konfliktin dinc həlli üçün real addımlar atmır. Əsas səbəblərdən biri məhz Ermənistana dünya dövlətləri və təşkilatları tərəfindən lazımi təzyiqlər göstərilməməsidir. Elə düşmənin davam edən cəbhə təxribatlarını arxasında duran əsas məqamlardan biri də budur.

Xatırladaq ki, son dövrlərdə düşmənin cəbhə təxribatları, atəşkəsi pozması halları yenidən intensivləşib. Hətta iş o yerə çatıb ki, atəşkəsin pozulması zamanı artıq ağır silahlardan da istifadə olunur. Məsələn, elə bu günlərdə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində, iriçaplı pulemyotlarla yanaşı, 60 millimetrlik minaatanlardan da istifadə etməklə atəşkəs rejimini pozub.

Qeyd edək ki, Ermənistan ordusunun təmas xəttində minaatanlardan istifadə etməsi haqda xeyli vaxtdır məlumat verilmədi. İndi isə, göründüyü kimi, düşmən təmas xətti boyu gərginliyi artırır, minaatanlardan istifadə etməyə başlayır. Bundan əvvəl Ermənistan müdafiə naziri David Tonoyan bildirmişdi ki, təmas xəttində Azərbaycan ordusunun hərbçisinin vurulması əmrini şəxsən verib. Bu da o mənanı verir ki, təmas xəttində gərginliyin azaldılmasına dair Azərbaycan və Ermənistan rəhbərləri arasında ötən ilin payızında Düşənbədə əldə edilmiş anlaşma artıq işləmir. Bunu cəbhədəki son hadisələri şərh edərkən almaniyalı politoloq Uve Halbax da təsdiqələyir: "Danışıqlar masasında ciddi razılaşmalar olmadan cəbhə xəttində vəziyyəti uzun müddət stabil saxlamaq mümkün olmayacaq. Həmçinin qeyd etmək lazımdır ki, mexanizmlərin tətbiq olunması məsələsində irəliləyişlərə nail olunmayıb". Analitik qeyd edib ki, son zamanlar cəbhə xəttindəki vəziyyət Düşənbə razılaşmasının yerinə yetirilmədiyini göstərir: "Buna görə də, hər iki tərəfin və vasitəçilərin etibarını qazanacaq əlavə mexanizmlərə ehtiyac var". Amma reallıq göstərir ki, erməni tərəfi təzyiq görməyincə, hansısa razılaşmaya, müqaviləyə əməl etməyəcək. Elə bu da Qarabağda savaş ehtimalını əhəmiyyətli dərəcədə artırır. Çünki İrəvan hələ lazımi təzyiqləri görmür. Məhz bu durumda Bakının Qarabağ münaqişəsini hərbi yolla həll etməkdən başqa çıxış yolu qalmır. Rusiyanın Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov bu fonda vurğulayır ki, başqa seçim variantı qalmayan Azərbaycan, Ermənistandan fərqli olaraq, savaşa tam hazırdır. Onun sözlərinə görə, Ermənistan Qarabağdan əlavə 7 rayona da nəzarəti həyata keçirir: "O ərazilərdən azərbaycanlılar çıxarılıb. Bundan əlavə, BMT, Avropa Parlamenti və digər beynəlxalq təşkilatlar qətnəmələr qəbul ediblər. Həmin sənədlərdə Dağlıq Qarabağ Azərbaycan ərazisi olduğu qeyd olunub. İndi münaqişənin həlli ilə bağlı ölkələr arasında danışıqlar aparılır. Amma danışıqlar nəticə vermir və bu da savaş ehtimalını artırır. Azərbaycanın hərbi büdcəsi Ermənistanın dövlət büdcəsindən artıqdır. Bu o deməkdir ki, Azərbaycan ordusu müharibəyə hazırdır. Yəni sülh danışıqları nəticə vermədikdə, Azərbaycan müharibə yolunu seçə bilər. Minsk Qrupunun və dünya ictimaiyyətinin bunu nəzərə alması vacibdir".

Erməni politoloq Naira Ayrumyan da bu gedişlə Qarabağ münaqişəsinin hərbi həllini istisna etmir. Onun sözlərinə görə, əvvəllər danışıqlara ümid böyük idisə, indi fərqli vəziyyət yaranıb: "Məndə olan məlumata əsasən, Ermənistanın baş naziri Nikol Paşinyan yenə də Dağlıq Qarabağın sakinləri adından danışıqlar aparmağa hazır olmadığını iddia edir. Bu isə danışıqlar prosesini dalana direyir. Özü də bütün bunlar cəbhədə vəziyyətin gərginləşdiyi bir vaxta təsadüf edir. Faktiki olaraq danışıqlar yoxdur və belə vəziyyət erməni tərəfini tamamilə qane edir, amma Azərbaycanı heç cür qane edə bilməz. Və Azərbaycan tərəfi həmsədrlərin köməyi ilə kompromis variant tapmaq istəyir. Belə variantın yoxluğu da müharibəni qaçılmaz edir. Amma yeni Qarabağ savaşının aparılmasına Ermənistanın lazımi resursları yoxdur". Digər ekspert Viktor Soqomonyan da yaranmış situasiyanı ölkəsi üçün təhlükəli sayır: "Biz Ermənistan tarixində misli görünməmiş halla üz-üzəyik. Hakimiyyət danışıqlar aparmaqda acizlik nümayiş etdirir. Eyni zamanda prosesi hansı prinsiplər əsasında aparmağa hazırlaşdığını bəyan etmir. Bununla bağlı çox böyük narahatlıqlar var. Konkret olaraq belə narahatlıq var ki, erməni tərəfinin bu siyasəti beynəlxalq birlik - Minsk Qrupunun həmsədrləri, vasitəçilər tərəfindən qeyri-konstruktiv olaraq qiymətləndiriləcək və hərbi əməliyyatların bərpasına gətirib çıxaracaq. Bu, olduqca arzuolunmaz ssenaridir". Soqomonyan ümid edir ki, Paşinyan hökuməti tezliklə Qarabağ məsəlsi ilə bağlı mövqeyini müəyyən edəcək və danışıqlar prosesində hansı prinsiplər əsasında iştirak edəcəyini açıqlayacaq: "Ancaq bundan sonra Qarabağ məsələsinin sülh yolu ilə nizamlanması perspektivləri barədə danışmaq olar".

Yaranmış durumda Azərbaycanın mövqeyi bundan ibarətdir ki, mövcud status-kvo qəbuledilməzdir və bu proses həmişəlik davam edə bilməz. Ona görə də Bakı İrəvanın artıq dəqiq addımlar atmasını, beynəlxalq ictimaiyyətin də bu məsələdə öz sözünü deməsini istəyir. Əks təqdirdə, yuxarıda qeyd olunduğu kimi, Qarabağ münaqişəsinin hərbi həlli qaçılmaz olacaq. Məhz bundan sonra baş verəcək hadisələrə görə Ermənistan rəhbərliyi məsuliyyət daşıyacaq.

Çünki onlar sülhə hansısa şans saxlamırlar. Lakin düşmən tərəf indi onu da nəzərə almalıdır ki, ordumuz işğal altında olan torpaqlarımızı azad etməyə tam hazırdır. Digər tərəfdən nəzərə almaq lazımdır ki, Azərbaycan indiyə kimi sülhü gözləyərək Ermənistana çoxlu güzəştlər edib. Ermənilər isə hələ də bunu lazımınca qiymətləndirə bilmir. Elə bu səbəbdən də Azərbaycan ordusunun bu gedişlə işğalçı qüvvələri darmadağın etməsi üçün yenidən hərbi əməliyyatlara start verməsi qaçılmaz sayılır. Hər halda, hadislərin inkişaf axarı yaxın tezlikdə bu ssenarinin reallaşma ehtimalının daha yüksək olduğunu üzə çıxarır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Ermənistan hakimiyyəti ilə Azərbaycanın işğal edilmiş ərazilərində yaradılan separatçı rejim arasında qarşıdurma getdikcə daha maraqlı xarakter alır. Belə görünür ki, qarşıdakı dövr ərzində tərəflər əsas diqqəti bir-birinin mövqeyini sarsıtmağa yönəldəcək.**

# Köçəryanla Sarkisyan açıq birləşir, Qarabağa anti-Paşinyançı yeni "prezidenti" də tapıblar...

*"Qarabağ klanı" baş nazirə qarşı genişmiqyaslı fəaliyyətə start verdi*

İndiki vəziyyətdə separatçı rejimlə müqayisədə Nikol Paşinyan hakimiyyəti müəyyən qədər güclü görünsə də, yayılan məlumata əsasən, sabiq prezidentlər Robert Köçəryan və Serj Sarkisyan prosesə daha fəal şəkildə müdaxilə etmək qərarına gəlib. Əsas niyyət isə gələn il ərzində də separatçı rejim rəhbərliyində tərəflərin hər birinin özünə yaxın saydığı şəxsi görməsidir.

Hazırda proseslərin gedişindən belə bəlli olur ki, Bako Saakyandan sonra "Qarabağ klanı" separatçı rejimin başında "təhlükəsizlik şurasının katibi" Vitali Balasanyanı görmək istəyir. Nikol Paşinya isə birmənalı şəkildə buna qarşıdır. Xatırladaq ki, artıq separatçı rejimin "rəhbəri" Bako Saakyan "təhlükəsizlik şurasının katibi" Vitali Balasanyanı vəzifəsindən kənarlaşdırıb. Buna səbəb Paşinyanın hakimiyyətinin separatçılara maliyyə yardımını davam etdirmək üçün Balasanyanın qovulmasını şərt kimi irəli sürməsidir. Balasanyan "Qarabağ klanı"nın əsas fiqurlarındandır və Paşinyana qarşı açıq mətnlə çıxışlar edib. Saakyan maliyyəni almaq üçün Paşinyanın şərtini yerinə yetirib, lakin eyni zamanda əks-həmlə də etdi. Belə ki, separatçı lider "fövqəladə hallar naziri" Levon Mnasakanyanı "polis rəisi" təyin etdi. Mnasakanyan separatçı rejimdə "müdafiə naziri" idi. Onun da bu postdan uzaqlaşdırılmasını Paşinyan istəmişdi. Çünki Mnasakanyan Paşinyan hakimiyyətinə qarşı "əraziləri Azərbaycana qaytarmaq" ittihamı irəli sürmüşdü. Ermənistanın "İrates" nəşri yazır ki, bu halda Paşinyan separatçı rejimlə qarşıdurmanı davam etdirməyi düşünür: "Ermənistanla qaşıdurma şəraitində Qarabağın "rəhbərliyi" mümkün qədər sakit şəkildə hakimiyyət dəyişikliyini həyata keçirməyə çalışır. Lakin bununla belə, bəzi qüvvələr bütün bunları qızışdırmağa və intriqalar yaratmağa çalışır. Qarabağdakı mənbələrimizin verdiyi məlumata görə, hazırkı vəziyyətdə prezidentliyə namizədlər içərisində təhlükəsizlik şurasının rəhbəri Vitali Balasanyan favoritdir və qarabağlılar ona xüsusi rəğbət bəsləyir. Qarabağdakı "hakimiyyətin" bəzi nümayəndələri gecə-gündüz "inqilabçıların" siyasətini tərifləyən Ara Harutyunyanı üstün tutursa, o zaman bu məsələdə digərlərinin ciddi ziddiyətləri var. Bizdə olan məlumata görə, Köçəryan öz şəxsi komandası ilə, Sarkisyan isə Respublika Partiyası ilə Balasanyana öz dəstəyini ifadə edib. Paşinyanın Balasanyana sərt münasibət göstərməsinin səbəbi də məhz budur". Erməni nəşri yazır ki, Paşinyan bu durumda Köçəryan və Sarkisyanı da sıradan çıxarmaq üçün müvafiq addımlar atmağa çalışır. Məsələn, qeyd olunur ki, yaxın tezlikdə Serj Sarkisyana və bir neçə oliqarxa qarşı cinayət işləri açıla bilər. Ermənistan hüquq-mühafizə orqanlarının 3 istiqamətdə durmadan istintaq aparmasının səbəbi də bununla əlaqələndirilir. Bu istintaqlardan biri 1 mart hadisələri ilə bağlı Sarkisyana qarşı olan ifadələr, digəri aprel döyüşləri və nəhayət, üçüncüsü Mehri dəmir yolu cinayətinin araşdırmasıdır. Bundan əlavə, əldə edilən məlumatlara görə, inqilabın ikinci dalğasında Sarkisyana yaxın çevrə də istintaq araşdırmaları şousuna cəlb edilə bilər. Artıq Ermənistanın keçmiş maliyyə və kənd təsərrüfatı nazirləri Qaqik Xaçatryan və Serqo Karapetyana qarşı rəsmi ittiham irəli sürülüb. Onların adları dövlət subsidiyaları çərçivəsində fermerlərə güzəştli qiymətlərə gübrələr ayrılması ilə bağlı cinayət işində hallanıb. Keçmiş nazirlər Ermənistan dövlətinə milyard dram məbləğində zərər vurub. Zərərin böyük hissəsi artıq ödənilib. Maraqlıdır ki, Xaçatryan Karapetyanın üzərinə düşən ödənişi öz öhdəsinə götürüb. Bundan əvvəl Ermənistanın Araqatsot vilayətində fermerlərə gübrələrin paylanması zamanı baş verən sui-istifadə halları ilə əlaqədar 9 cinayət işi açılıb. Erməni mediası yazır ki, Sarksiyanın nazirlərinin sıradan çıxarılmasının əsas səbəbi "Qarabağ klanı"nın zəiflədilməsidir. Nazirlərdən sonra sıranın Sarksiyana çatacağı vurğulanır. Eyni zamanda, hələ də istitanqı davam edən Köçəryanın da yenidən həbsə atılması hazırlıq görülür. Respublika Partiyasının sözçüsü Eduard Şarmazanov vurğulayıfr ki, belə addımlar atan Paşinyan mədəni zalım, diktator və demokratiya məfhumuna yaraşmayan bir şəxsdir: "Bir adam yoxdurmu Paşinyana desin ki, bəsdir demokratiyadan danışdın? O hara, demokratiya hara? O, gizli dinləmələrdən, insan zorakılığından, xarici agentlərdən və suiqəsdçi qüvvələrdən danışa bilər. Yoxsa ki, gəlib demokratiya zəfərini ortaya qoyub. Sən mədəni bir zalımsan və diktatorsan, məgər demokratiya sənə yaraşır?" Hazırda Qarabağda qarşıdakı "prezident seçkiləri" ilə əlaqədar olaraq separatçılarla İrəvanın çəkişməsinin daha da dərinləşəcəyi gözlənir. Erməni politoloqlar vurğulayır ki, bir çoxları Paşinyanın adamı kimi Dağlıq Qarabağın keçmiş "baş naziri" Araik Arutyunyanı görür. Politoloq Yervand Bozoyan bu xüsusda bildirir: "Birbaşa tərəfdaşı olmayan Paşinyan Arutyunyan üçün meydanı təmizləməyə çalışır, onun potensial rəqiblərini hədəfə götürür". Bütün bunlar separatçı rejimlə İrəvan arasında gərginlyin hələ də davam edəcəyini deməyə əsas verir.





**_Tahir TAĞIYEV_**

**ABŞ və Çin arasında şiddətlənməkdə olan ticarət müharibəsinin dünya iqtisadiyyatında hansı şoklar yaradacağı indi beynəlxalq gündəmin əsas mövzularından birinə çevrilib. Belə fikirlər səslənir ki, tərəflər mövqelərindən geri çəkilməsə, dünya iqtisadiyyatında yeni böhranın yaşanması qaçılmaz olacaq. Çünki ABŞ və Çin hazırda dünyada ən böyük iqtisadiyyata malik birinci, ikinci yerləri bölüşən ölkələrdir.**

# Azərbaycanın ABŞ - Çin ticarət müharibəsindən uduşlu çıxmaq imkanları...

Dünya iqtisadiyyatının az qala yarısı onların payına düşür. Bu mənada, iki ölkənin gərginləşən münasibətlərinin qlobal iqtisadi böhşrana rəvac verməsi heç də istisnalıq təşkil etmir.

İndilikdə isə belə görünür ki, tərəflər iqtisadi savaşı daha da dərinləşdirməkdə israrlıdır. Məsələ ilə bağlı ABŞ-ın mövqeyinə münasibət bildirən Çin rəsmilərinin prosesə yanaşması da qeyd edilənləri təsdiqləyir. Çinin Xarici İşlər Nazirliyinin rəsmi təmsilçisi Qen Şuan bildirib ki, Pekin ticarət müharibəsini istəmir, lakin eyni zamanda ondan qorxmur:"Birləşmiş Ştatlar bərabərhüquqlu məsləhətləşmələrə hazırdırsa, onda bizim qapımız açıqdır. Birləşmiş Ştatlar yalnız ticarət çəkişmələrinin bundan sonra da gərginləşməsini istəyirsə, onda biz qətiyyətli cavab verəcək və sona qədər vuruşacağıq". Şuan ABŞ prezidenti Donald Trampın Çinlə bağlı səsləndirdiyi bəyanatı şərh edərkən vurğulayıb ki, Çin liderinin iyunun sonunda Yaponiyada "G20" sammiti çərçivəsində Donald Trampla görüş keçirib-keçirməyəcəyinə dair hələlik məlumatı yoxdur.

Donald Tramp isə bundan əvvəl bəyan edib ki, çinli həmkarı Si Tsinpin "Böyük İyirmilər"in Osakada keçiriləcək sammitinə gəlməsə, ABŞ dərhal Çin məhsullarına yeni rüsumlar tətbiq edəcək. Xatırladaq ki, mayın ortalarında ABŞ-Çin ticarət danışıqlarının sonuncu raundu Çindən gələn mallara rüsumların qalxması fonunda nəticəsiz başa çatmışdı. O zaman ABŞ rüsumları 10%-dən 25%-dək artırmışdı. Tramp, həmçinin, Çindən gələn və təqribən 300 milyard dollar dəyərində olan bütün digər idxalata qarşı rüsumların artırılması prosesini başlatmağı tapşırmışdı. Bunun ardınca Donald Tramp yenidən bəyan edib ki, ehtiyac olarsa, Çinin 300 milyard dollar həcmindəki məhsuluna əlavə gömrük vergisi tətbiq ediləcək. Baş verənlərə cavab olaraq Çin 60 milyard dollarlıq ABŞ məhsuluna əlavə vergi tətbiq etdiyini açıqlayıb.



Qeyd edək ki, "Böyük İyirmilər"in sammiti iyunun 29-da Osakada keçiriləcək. Həmin vaxt ABŞ və Çin liderlərinin görüşü baş tutmasa, ekspertlər ticarət müharibəsinin miqyasının daha da genişlənəcəyini proqnozlaşdırır. Hazırda ABŞ, Rusiya, Çin, Hindistan, Avropa İttifaqı ölkələri arasında ticarət müharibəsi bir reallıqdır. Onun qısa mahiyyəti belədir ki, tərəflər bir-birinin mallarına vergini yüksəldir. Hazırda ticarət müharibəsindən kimin qalib çıxacağı dəqiq bilinmir. Amma bir məsələ dəqiqdir ki, bu hal dünya miqyasında ciddi geosiyasi, geoiqtisadi dəyişikliklərə də səbəb olacaq. Hesab edilir ki, indi Pekin və Vaşinqton daha çox ölkəni öz yanında görməyə çalışır. Qeyd olunan məsələdə indilikdə Rusiya, Türkiyə, İran, bəzi Avropa ölkələrinin Çinin yanında yer alması müşahidə olunur. Belə görünür ki, hazırkı iqtisadi vəziyyətdə qlobal ticarət müharibəsi dünyada qüvvələr balansına ciddi təsir edəcək ssenarilərə yol aça bilər. Burada aparıcı rolu ABŞ - Çin münasibətlərinin oynaya biləcəyi ehtimal edilir. Yeri gəlmişkən qeyd edək ki, hər iki ölkənin son dövrlərdə Azərbaycanın da yerləşdiyi Cənubi Qafqaza marağı əhəmiyyətli dərəcədə artıb. Xüsusən də istər Çinin, istərsə də ABŞ-ın regionun əsas dövləti olan Azərbaycanla iqtisadi münasibətlərə indi daha çox diqqət yteirməsi aydın müşahidə olunur.

Ümumiyyətlə, Qafqazda vəziyyət belədir ki, Ermənistan burada hansısa iqtisadi çəkiyə malik olmadığından, onunla əməkdaşlıq digər ölkələr, o cümlədən ABŞ və Çin üçün arxa plandadır. Qonşu Gürcüstan isə daha çox ABŞ-a meyllənir. Amma region iqtisadiyyatının böyük hissəsinə malik Azərbaycanla vəziyyət fərqlidir. Çin və ABŞ indilikdə Azərbaycanla iqtisadi əlaqələri daha da dərinləşdirməyə can atır. Azərbaycan isə hər iki ölkə ilə iqtisadi əməkdaşlığı genişləndirməkdə maraqlıdır və tərəflərin hər birinə münasibətdə neytral siyasət yürüdür. Belə görünür ki, Bakının bu yanaşmasından Pekin və Vaşinqton özləri də razıdır.

Hazırda Birləşmiş Ştatlarla Azərbaycan arasında bir çox istiqamətləri əhatə edən münasibətlər mövcuddur. Azərbaycan Birləşmiş Ştatlarla geniş iqtisadi əməkdaşlıq əlaqələri qurub. Bu əməkdaşlığın əsas istiqamətləri isə Azərbaycanda neft və qaz sektorunun inkişafı, yeni boru kəmərlərinin tikintisi və istismarı, "Şərq-Qərb" dəhlizi boyu infrastruktur layihələrinin həyata keçirilməsi, qeyri-neft sektoru sahəsində qarşılıqlı ticarətin genişləndirilməsidir. İki ölkə arasında iqtisadi münasibətlərin genişlənməsinin göstəricilərindən biri olaraq ticarət dövriyyəsinin həcmi də ildən-ilə artmaqdadır.

Hazırda Azərbaycanın Çinlə də ticarət dövriyyəsində müsbət dinamika müşahidə olunur. Bununla belə, ticarət əlaqələrinin daha da genişləndirilməsi üçün potensial böyükdür və bu potensialın reallaşdırılması istiqamətində Azərbaycan tərəfindən ardıcıl tədbirlər görülür. Məsələn, ötən dövrdə Çinin Urumçi, Şanxay və Lucou şəhərlərində Azərbaycanın ticarət və şərab evləri açılıb, Honkonq, Quancou, Urumçi, Şanxay və Pekin şəhərlərinə ixrac missiyaları təşkil edilib. Eyni zamanda, Çin tərəfindən həyata keçirilən idxala dəstək siyasəti Azərbaycanın yüksək keyfiyyətli məhsullarının Çin bazarında təklif olunması üçün əlverişli şərait yaradır. Çinin "Bir Kəmər və Bir Yol" strategiyasını dəstəkləyən ilk ölkələrdən olan Azərbaycan, həm də bu təşəbbüsün reallaşdırılmasında fəal iştirakçıdır. Çinin "Bir Kəmər - Bir Yol" təşəbbüsü çərçivəsində Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun potensialından istifadə olunması iqtisadi sahədə, xüsusilə investisiya, ticarət, tranzit və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanlar açır. Məhz bütün bunları əsas götürərək, nə ABŞ, nə də Çin Azərbaycanla münasibətləri pisləşdirməkdə maraqlıdır. Əksinə, belə görünür ki, tərəflərin hər ikisi, ticarət müharibəsinə rəğmən, Azərbaycanla əlaqələri daha sürətlə inikşaf etdirəcək.

***Nahid SALAYEV***

**Paytaxtda və müxtəlif regionlarda yerləşən bir sıra ictimai iaşə obyektlərində və istixanalarda əmək müqavilələrinin bağlanması və əmək münasibətlərinin müvafiq qaydada rəsmiləşdirilməsinin yoxlanılması məqsədilə vergi nəzarəti tədbirləri keçirilib.**

# Şadlıq evlərinin "qul əməyinə" qarşı vergi demarşı - 32 müəssisədə çoxlu qeydiyyatsız işçi aşkarlandı...

***Fuad İbrahimli:** "İşçiləri müqaviləsiz çalışdıranlara qarşı cəzalar daha da sərtləşdirilməlidir"*



Vergilər Nazirliyinin yaydığı məlumatda qeyd olunur ki, may ayı ərzində 32 şadlıq evində və 61 istixanada keçirilmiş operativ vergi nəzarəti tədbirləri zamanı, ümumilikdə, 1.770 nəfər fiziki şəxsin əmək müqaviləsiz işə cəlb olunduğu faktı aşkar edilib. Aşkar edilən faktlar üzrə birinci dəfə pozuntu halına yol verildiyi üçün, maliyyə sanksiyası əvəzinə, vergi ödəyicilərinə xəbərdarlıq edilib.

Qeyd olunub ki, bununla yanaşı, vergi nəzarəti tədbiri keçirilən 53 vergi ödəyicisinin fəaliyyəti üzrə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 162-1-ci maddəsində nəzərdə tutulan cinayətin əlaməti faktları müəyyən edilib.

Məlumat üçün bildirək ki, işçilərin əmək müqaviləsiz işlədilməsinə görə işəgötürənlərə tətbiq olunan maliyyə sanksiyasının məbləği artırılıb. Bu, Vergi Məcəlləsinə dəyişiklikdə əksini tapıb. Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə işəgötürən təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə 2000 manat cərimə olunacaq. İkinci dəfə yol verdikdə 4000, üç və daha çox dəfə yol verdikdə isə 6000 manat maliyyə sanksiyası tətbiq olunacaq. Qeyd edək ki, hazırda bütün hallarda işəgötürənə hər bir belə şəxs üzrə 1000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Qeyd edək ki, şadlıq evlərində çalışan işçilərin əksəriyyəti əmək müqaviləsi bağlanılmadan çalışır. Ekspertlər bildirirlər ki, şadlıq evi rəhbərləri əsasən ofisiant, rəqqas və aşpazlarla əmək müqaviləsi bağlamadan çalışdırırlar.

**Məsələ ilə bağlı fikir bildirən iqtisadçı-ekspert Fuad İbrahimli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bəzi sahibkarların işçiləri əmək müqaviləsi bağlamadan çalışdırması böyük problemdir:** "Müqaviləsiz hər hansı bir əmək fəaliyyəti ilə məşğul olmaq ilk növbədə həmin şəxsin gələcək həyatına mənfi təsir edir. İşçilərin özləri müqaviləsiz çalışdırılmağa qarşı çıxmalıdırlar. Onlar öz haqlarını tələb etməlidirlər".

*"Amma bu həmişə effekt vermir"*

Həmsöhbətimiz hesab edir ki, işçiləri müqaviləsiz çalışdıranlara qarşı cəzalar daha da sərtləşdirilməlidir: "Müəyyən hallarda sanksiyaları sərtləşdirməklə qanunu pozanları bu əməlindən çəkindirmək olur. Amma bu həmişə effekt vermir. Məsələn, kassa aparatına münasibətdə anlamaq olar ki, bu, göz qabağında olan məsələdir. Kassa aparatına vurmayanda yüksək cərimə tətbiq etmək olar. Amma işçilərin gizlədilməsini sübut etmək çox çətindir. Çalışanın qeyri-rəsmi işlədiyi necə sübut olunacaq? Deyəcəklər ki, yaxın qohumdur və s.".

***Günel CƏLİLOVA***

**Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev "Yaşayış sahələrinin satmaq öhdəliyi ilə kirayəyə vermə mexanizminin yaradılması haqqında" 2019-cu il 25 yanvar tarixli Fərmanının icrası məqsədilə bir sıra qanunvericilik aktlarına dəyişiklik olunmasına dair Fərman imzalayıb.**

# Yaşayış sahələrinin kirayə verilmə mexanizminin rəsmiləşdirilməsi nə deməkdir...

***Vüqar Bayramov:** "Məlum fərman kirayə mənzil fondunun yaradılması ilə bağlı mexanizmin hazırlanmasının yekunlaşdığından xəbər verir"*

***Ramil Osmanlı:** "Kirayə yolu ilə mənzil əldə etmək hüququ sosial mənzilə sahiblənəcək kateqoriyalardan daha geniş təbəqələrə verilməlidir"*



Xatırladaq ki, 25 yanvar tarixli Fərman Azərbaycanda ilk dəfə olaraq mənzillərin kirayə yolu ilə satılması mexanizminin yaradılmasını nəzərdə tutur.

Ekspertlər bu yolla mənzil əldə etmək hüququnun daha geniş kateqoriyalara verilməsini təklif edirlər.

Maraqlıdır, bu dəyişikliklərdə nələr nəzərdə tutulur və nə zamandan vətəndaşlar satın almaq məqsədilə kirayə mənzilə sahib ola biləcəklər?

**İqtisadçı-ekspert Vüqar Bayramov bildirdi ki, son fərman kirayə mənzil fondunun yaradılması ilə bağlı mexanizmin hazırlanmasının yekunlaşdığından xəbər verir.** Bu o deməkdir ki, yaxın zamanlarda artıq vətəndaşlarımız kirayə mənzilə köçmək üçün müraciət edə biləcəklər: "Yeni fərmanda kirayə mənzilin təklif edilməsi artıq ipoteka ilə əlaqəli qanunvericiliyə daxil oldu ki, bu da hüquqi bazanın formalaşıb başa çatması anlamına gəlir. Eyni zamanda, elektron ipoteka portalında da kirayə mənzillərə müraciət formalaşdırılacaq.

Fondun təklif edəcəyi mənzillərlə bağlı kirayə yaşayış sahələri barədə ətraflı məlumatın olması (binanın və ya yaşayış evinin ünvanı, yaşayış sahəsinin sayı, yerləşdiyi mərtəbə, mənzilin sahəsi, otaqların sayı, plan-cizgisi, aylıq ödənişi və s.) və bu məlumatlar üzrə istifadəsi sadə olan axtarış imkanının yaradılması həyata keçiriləcək. Burada da məqsəd kirayə mənzilə sahib olmaq istəyən vətəndaşlarımızın zonalar və eləcə də mənzil parametrləri üzrə məlumatları axtarış sistemi vasitəsilə əldə etməsidir". Həmsöhbətimizin sözlərinə görə, kirayə müqaviləsi bağlamaq üçün müraciət etmiş şəxsin imkanının kirayə kalkulyatoru vasitəsilə ilkin olaraq müəyyənləşdirilməsi üçün kalkulyatorun hazırlanması həyata keçiriləcək.

V.Bayramov evi kirayə götürmək üçün tələb olunan sənədlərin siyahısını da açıqladı: "Kirayə müqaviləsini bağlamaq üçün müraciət edən şəxsin şəxsiyyətini təsdiq edən sənəd, şəxsin nikah (və ya nikahın pozulması) haqqında şəhadətnaməsi, şəxsin iş yerini və gəlirlərini təsdiq edən məlumatlar, şəxsin ailə tərkibi barədə məlumatlar, şəxsin vergi orqanları tərəfindən qəbul olunmuş gəlir vergisi və ya sadələşdirilmiş vergi bəyannaməsi, şəxsin kredit bürolarında saxlanan məlumatları, şəxsin sosial sığorta ödənişləri barədə məlumatlar, şəxsin məhkumluğunun olması (olmaması) barədə məlumatlar".

**Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı bildirdi ki, Prezidentin son fərmanı bir sıra texniki dəqiqləşmələri əhatə edir:** "Bu fərman yanvarda imzalanmış fərmana texniki xarakterli əlavələri əks etdirir. Yəni kirayə yolu ilə mənzil satışı mexanizmini müəyyənləşdirən qaydalar hələ hazır deyil. Buna görə də bu imkandan kimlərin yararlana biləcəyi, hansı yolla kirayə mənzillərin əldə olunacağı və sair barədə nəsə demək mümkün deyil".

R.Osmanlı hesab edir ki, yeni mexanizm ipoteka yolu ilə mənzil əldə edə bilməyən təbəqələr üçün nəzərdə tutulur: "Eyni zamanda, İpoteka və Kredit Zəmanət Fondunun aktivlərindən daha səmərəli istifadəyə nail olunması məqsədi güdülür. Bu fond çox vacib bir bazar iştirakçısı olaraq hazır mənzilləri alıb kirayə yolu ilə vətəndaşlara satacaq. Bu, bir tərəfdən, vətəndaşların mənzil təminatını gücləndirməyə yönəlmiş sosial layihədir. Layihə həm də İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətində səmərəliliyin artmasına hesablanıb. Lakin konkret qaydalar müəyyənləşməyib deyə, layihənin faydaları barədə nəsə demək mümkün deyil.

Kirayə yolu ilə mənzil əldə etmək hüququ sosial mənzilə sahiblənəcək kateqoriyalardan daha geniş təbəqələrə verilməlidir. Sosial mənzillər məhdud kateqoriya insanlara verilir. Amma düşünürəm ki, kirayə yolu ilə mənzil almaq hüququ daha geniş kateqoriyalara şamil edilməlidir. Məsələn, prosesin təhlili göstərir ki, ipoteka götürənlərin 1 faizini sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar təşkil edir. Amma Azərbaycanda özəl sektorun inkişafını, iqtisadiyyatın şaxələndirilməsini prioritet seçmişiksə, sahibkarlıq fəaliyyəti ilə məşğul olanlara da belə mənzil əldə etmək hüququ verilməlidir. Yalnız sahibkarlar deyil, digər təbəqələrə də belə hüquq tanınmalıdır. Sadəcə, burada əsas şərt bu olmalıdır ki, yalnız mülkiyyətində mənzil olmayanlar bu hüquqdan yararlana bilsinlər. İpoteka və sosial mənzil alanlarla bağlı belə şərt qoyulmayıb, amma hesab edirəm ki, kirayə yolu ilə mənzil əldə etmək istəyənlərə qoyulmalıdır".

***Günel CƏLİLOVA***

Məlum olduğu kimi, dünyada böyük nüfuza sahib futbol turnirlərindən olan UEFA Avropa Liqasının 2019-cu il 29 may tarixində Bakı şəhərində keçirilən final oyunu nəticəsində Azərbaycana birbaşa nağd şəkildə təxminən 175 milyon manat vəsait daxil olub, ümumilikdə isə 680 milyon manatlıq iqtisadi qazanc əldə edilib.



# Başqa hansı ölkə bir beynəlxalq futbol finalında bu qədər pul qazana bilib...

***Kamal Quliyev:** "Azərbaycan qədər final oyunundan bu qədər böyük qazancla çıxan ikinci ölkə dünyada yoxdur"*

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hesablamalarına əsasən, bu göstəricilər beynəlxalq kontekstdə media üzərindən əldə edilən dəyər, turistlərin xərcləmələri, çarter reyslərlə təyyarə parkına eniş edən təyyarələrə göstərilən xidmətdən əldə edilən gəlir, oyun ilə əlaqədar UEFA tərəfindən çəkilən xərclər və digər məqamlar əsasında müəyyənləşdirilib.

Rəsmi göstəricilərə əsasən, oyunu 300 milyona yaxın insan televiziya və internet üzərindən canlı izləyib. Mütəxəssislər hesab edirlər ki, beynəlxalq brendinq üzrə adambaşına düşən ortalama xərclər nəzərə alınsa, 300 milyona yaxın izləyici kütləsinə ölkəmizin media vasitəsilə tanıdılması üçün 505 milyon manatlıq vəsait ayrılmalı idi. Beynəlxalq turnirin Bakıda keçirilməsi eyni məbləğdə marketinq dəyəri yaradaraq, ölkəmizi yüz milyonlarla insana daha da yaxından tanıdıb.

Gənclər və İdman Nazirliyi və AFFA-nın məlumatlarına görə, final oyunu ilə bağlı ölkəyə gələn xarici turistlərin sayı 37,4 min nəfər olub. Onların hesabına ölkəmizə 115 milyon manatlıq nağd vəsait daxil olub. İqtisadi dəyərin 1.25 milyon manatdan çoxu Avroliqanın final oyununun keçirilməsi üçün cəlb olunan işçilərin əməkhaqları hesabına yaranıb.

AZAL-dan daxil olan məlumatlarda isə 108 çarter reysi üçün alınan xidmət haqqının 687 min manatdan çox olduğu əksini tapıb.

*"Bir sıra müasir idman və digər infrastruktur obyektlərinin inşa edilməsi həm turistləri, həm də idman azarkeşlərini özünə cəlb edir"*

Dünyanın digər ölkələrində də bənzər futbol tədbirləri keçirilir. Maraqlıdır, dünyada başqa hansısa ölkə varmı ki, futbol finalından bu qədər iqtisadi qazanc əldə edib?

**Məsələyə münasibət bildirən idman eksperti Kamal Quliyevin sözlərinə görə, Azərbaycan qədər final oyunundan bu qədər böyük qazancla çıxan ikinci ölkə dünyada yoxdur:** "Baxmayaraq ki, bənzər final oyunları digər ölkələrdə də keçirilib. Ancaq həmin ölkələr Azərbaycan qədər qazanc əldə edə bilməyiblər. Məsələ ondadır ki, bir sıra parametrlərə görə Azərbaycanın öndə olması bizim bu yarışmadan daha çox qazancla çıxmamıza səbəb olub. Azərbaycanın get-gedə daha da inkişaf etməsi, bir sıra müasir idman və digər infrastruktur obyektlərinin inşa edilməsi həm turistləri, həm də idman azarkeşlərini özünə cəlb edir. Onlar görürlər ki, Azərbaycanda idmana böyük qayğı və diqqət var.

**Digər tərəfdən, Azərbaycan coğrafi mövqeyinə görə də azarkeşlərin marağını cəlb edir. Azarkeşlər Azərbaycanın görməli yerlərini internet üzərindən izləyib və final oyunu ilə əlaqədar Bakıya üz tutdular. Nəticədə Azərbaycan bu oyundan böyük qazancla çıxdı".**

***Vidadi ORDAHALLI***

Futbol üzrə Azərbaycan millisi tarixinin ən uğursuz dönəmlərindən birini yaşayır desək yanılmarıq. "Bakcell Arena"da AVRO-2020-nin seçmə mərhələsi çərçivəsində növbəti oyununa çıxan milli komanda Slovakiya yığmasına böyük hesabla məğlub olub. Nikola Yurçeviçin yetirmələrinin doğma meydanda 5:1 hesabı ilə uduzmaları azarkeşləri də məyus edib.




# Azərbaycan milli futbol komandasına bu qədər pul qoyulur, bahalı məşqçi, oyunçular - nəticə isə rüsvayçılıq...

***Kənan Məstəliyev:** "Yalnız məşqçi dəyişməklə bu problemin həllinə nail ola bilmərik"*

Azərbaycan dövləti millimizin inkişafı üçün əlindən gələni əsirgəmir. Milliyə dünyanın ən tanınmış futbol məşqçiləri yüksək əməkhaqqı müqabilində cəlb edirlər. Komandanın maddi-texniki bazası, oyunçulara göstərilən qayğı ən yüksək səviyyədədir. Buna baxmayaraq, futbol millimiz ard-arda biabırçı məğlubiyyət seriyasını davam etdirir. Komandamız doğma divarlar arasında belə dünyanın heç də güclü olmayan futbol yığmalarına böyük hesabla məğlub olur. Hər oyundan-oyuna isə bu məğlubiyyətlər daha biabırçı hal alır. Yığmamızın bu cür oyun göstərməsinin kökündə hansı amillər durur?

**Tanınmış futbol şərhçisi Kənan Məstəliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Slovakiya və ondan əvvəl Macarıstana məğlubiyyət çox üzücü oldu:** "İki oyunda belə üzücü məğlubiyyət azarkeşlər üçün gözlənilməz olsa da, futbolla dərindən maraqlanan mütəxəssislər üçün isə belə olmadı. Çünki biz vəziyyətin acınacaqlı olduğunu görürdük, bu barədə yazılar yazırdıq. Mart ayında Xorvatiya məğlubiyyətindən sonra Litva kimi zəif bir komanda ilə Bakıda 0-0-lıq hesabdan sonra bu barədə yazmışdım. Belə acı vəziyyətlə bağlı bir sıra fikirlər söyləmək olar. Birincisi, baş məşqçi yanlış seçimdir. Çünki bu adam karyerası boyunca baş məşqçi işləməyib. İkinci məşqçi və ya köməkçi kimi fəaliyyət göstərib. Heç vaxt vacib qərarların verilməsində iştirak etməyib. İndi həmin təcrübəni Azərbaycanda həyata keçirmək istəyir. Belə bir adamı milli komandamıza baş məşqçi təyin etmək çox böyük səhv idi. Adam altı aydı işləyir, hələ də futbolçularımızı yaxşı tanımır, onların potensialına bələd deyil. Məşqçi ilə bağlı məsələ tam fiaskodur. Bundan sonra da onun nəsə edəcəyinə heç bir inam yoxdur. Ölkədəki futbolun səviyyəsi elə vəziyyətə salınıb ki, bu yalnız baş məşqçi probleminə bağlı məsələ deyil. Ölkəmizin futbol çempionatında cəmi 8 komanda iştirak edir. Ölkənin göstəriciləri ilə müqayisədə bu, biabırçı dərəcədə azdır. Bizim kimi ölkələrdə yüksək divizionda oynayan komandaların sayı ən azı 14 olur. Komandaların azlığı rəqabətin zəif olmasını şərtləndirir. Həmin bu 8 komandadan 5-ni AFFA maliyyələşdirir. Birinci divizionda da vəziyyət ürəkaçan deyil. Orada əsasən yüksək liqada oynayan komandaların ikinci heyəti çıxış edir. 3-cü liqa isə ümumiyyətlə yoxdur. Aşağı divizionun qalibləri illərdir yuxarı diviziona lisenziya probleminə görə keçə bilmirlər. Regionlarımızda futbol, demək olar ki, yox səviyyəsindədir. Yüksək divizionda çıxış edən 8 komandanın hamısı Abşeron yarımadasındadır. Yalnız Qəbələni istisna sayırlar. Amma onların oyunçuları da Bakıda yaşayır, komanda məşqlərini də burada edirlər. Yalnız oyundan-oyuna Qəbələyə gedirdilər. Gəncə, Tovuz, Lənkəran, Naxçıvan kimi futbol ənənələri olan bölgələrin komandalarından heç biri yüksək dəstədə təmsil olunmur. Ölkə futbolunda olan bu cür problemlər, təbii ki, millimizin oyununda özünü büruzə verir.

İllərdir bizim tənqidlərimizə baxmayaraq, bu belə davam edir. Yalnız məşqçi dəyişməklə bu problemin həllinə nail ola bilmərik. Struktur yeniliklər baş verməsə, Azərbaycan futbolunu bundan da böyük məğlubiyyətlər gözləyir. Hesab edirəm ki, AFFA prezidenti bu məsələyə ciddi müdaxilə edib, dəyişikliklərə imza atmalıdır. Dövlətimiz əlindən gələni əsirgəmir ki, yaxşı nəticə olsun. Amma biz günügündən geriyə addımlayırıq".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Cahana sığmayan Azərbaycan şairi

## *Nəsimi ili: klassik ədəbi irsə müasir baxış, milli və bəşəri ideyaların təbliği*

**Qüdrətli ədəbiyyat nəhənglərinin bədii dühasından və idrakından doğan əsərlər ədəbi düşüncəmizin formalaşmasında önəmli rola malikdir. Poeziyamızın zəngin dövrlərindən biri orta əsrlərdir ki, bu dönəmdə Azərbaycanın bir sıra şairləri, mütəfəkkirləri yazıb-yaradıb. Orta əsr Azərbaycan poeziyasının görkəmli simalarından biri də İmadəddin Nəsimidir.**

İ.Nəsimi ədəbi fikrin inkişafındakı möhtəşəm xidmətləri ilə orta əsrlərdə Şərq dünyası miqyasını aşaraq, beynəlxalq aləmdə də əsl sənət ulduzları kimi parlayıb. Haqqında danışdığımız şəxs ümumşərq miqyasında qüdrətli şair kimi tanınan böyük sənətkardır.

Danılmaz faktdır ki, Nəsimi dünya ədəbiyyatında sarsılmaz iradəsi və möhkəm əqidəsi ilə şəxsiyyətin bütövlüyünün və əzəmətinin nümunəsini göstərmiş nadir sənətkarlardan biridir.

Mənəvi kamillik konsepsiyasını ifadə edən Şərq poeziyasında Nəsiminin lirikası fərqli bir mövqeyə malikdir. O, əsərlərində idealla insanlıq arasında bərabərlik yaratmağa nail olub. Daha doğrusu, İmadəddin Nəsimi insanı ilahi qüdrətə malik ideal miqyasında vəsf edib. Onun şeirlərində insan orta əsrlər Şərq və Azərbaycan poeziyasında olduğu kimi, yaxud aşiqanə üslubdan daha çox konkret olaraq fərdin mənəvi ucalığı, şəxsiyyətin daxili azadlığı və əzəməti formatında təqdim olunub. Nəsimi insanı klassik Azərbaycan şeirindəki eşq mehrabından çıxararaq, ilahi varlıq müstəvisinə doğru yol gedən həqiqət aşiqi qismində tərənnüm edib. Nəsimi daha çox aşiqanə ruhda inkişaf edən Azərbaycan poeziyasında ictimai motivlərin meydanını genişləndirib. Bundan başqa, Nəsiminin poeziyasında nəsihətçilik arxa planda qalıb, həyat fəlsəfəsi və mübarizə ruhu ön mövqeyə keçib. Nəsimi özü də keşməkeşli tərcümeyi-halı və mübariz ruhlu şeirləri ilə kamil insan obrazının möhtəşəm şair-mütəfəkkir abidəsi kimi ucalır.

### Nəsiminin ölməz irsi Azərbaycan xalqının milli-mənəvi varlığının tükənməz xəzinəsidir

Bəllidir ki, Nəsimi cəmi 48 il ömür sürüb və 3 dildə yazıb-yaradıb. Azərbaycan, fars və ərəb dillərində böyük və zəngin ədəbi irs yaradan şairin şeirlərində ifadə olunan yüksək humanizm, dünyəvilik, mənəvi kamillik, ictimai ədalət və ilahi eşq ideyaları zamanı daha da irəli aparan çağırışlardır. Nəsiminin böyük idealları müasir dövrün də ideyalarını əks etdirir, onun əsərləri insanlığı mənəvi kamilliyə, ədalətə, humanizmə çağırmaqda davam edir.

Nəsiminin ölməz irsi Azərbaycan xalqının milli-mənəvi varlığının və böyük ideallarının, duyğu və düşüncəsinin zəngin və tükənməz xəzinəsidir. Azərbaycan xalqı məhz həmin möhkəm milli-mənəvi dayaqlar və davamlı böyük ənənələr əsasında zaman-zaman formalaşma və dirçəliş mərhələləri keçərək, indiki yüksək inkişaf səviyyəsinə gəlib çatıb.

Nəsimi bütün bəşəriyyəti öz yaradıcılığı ilə əsərlərində ifadə etməyi bacaran dahi şair və mütəfəkkirdir. 2017-ci ilin may ayında Parisdə UNESCO-nun baş qərargahında İmadəddin Nəsiminin vəfatının 600-cü ildönümü ilə əlaqədar təntənəli tədbirin keçirilməsi Nəsimi yaradıcılığının ümumbəşəri dəyərinin, onun bəşəriyyət üçün gərəkli şəxsiyyət olmasının ifadəsidir.

Nəsimi insanların qəlbini, onların iç dünyasını ilahi ustalıqla özünəməxsus zəngin söz yaradıcılığı ilə tərənnüm edən müəllimdir, ustaddır. Şeirlərini təhlil edərkən onun bütün yaradıcılığı boyu gələcək nəsillərə verdiyi töhfələr göz önündə dayanır. Nəsiminin insanlıq, kamil şəxsiyyət haqqında təsəvvürləri olduqca yüksəkdir.

Nəsimi öz şəxsində insanın bəşəri keyfiyyətlərini açır, onu mənalandırır, poetik səviyyəyə yüksəlir. Nəsimiyə görə, "mən" həyatdır, elə bir gözəllikdir ki, əgər özünü dərk edərsə, ülvi bir varlığa çevrilib ilahiləşir. Şairin fikrincə, insan bütöv bir aləmdir, insan kainatdır. Nəsimi əsərlərində insanın ən gözəl xüsusiyyəti özünü dərk etməsidir.

Onu da bildirək ki, Nəsimi yaradıcılığının böyük tərbiyəvi və maarifçi əhəmiyyəti var. Bu gün gənc nəslin əxlaq tərbiyəsində Nəsimi yaradıcılığı kamil insan düsturunu öz misralarında oxucuya aşılayır. Bu kamillik, insan qüdrəti heyranedici bir himn kimi səslənir. Və bu gözəllik, bu qüdrət dünyada bütün insanlara deyil, yalnız özünü tanımış, dərk etmiş kamil insanlara xasdır. Nəsiminin əsərlərində hər kəsə özünü tanımaq yollarını göstərmək, kamil insan yetişdirmək, insanlardakı bacarıqları üzə çıxarmaq və onlara istiqamət vermək kimi ideyalar müasir pedaqoji fikrin əsas ideyaları ilə uzlaşır.



AMEA Şərqşünaslıq İnstitutunun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, dosent Səadət Şıxıyeva bildirdi ki, Nəsiminin anadilli poeziyamıza gətirdiyi və qəzəlin qəlibindən istifadə ilə ayrıca poetik forma şəkli verdiyi bir sıra poetik fiqurların spesifik xüsusiyyətlərindən bəhs edib: "Nəsimi şeiriyyətini sevdirən cəhətlər dilin təbii axarı, uğurlu özünüifadədir. Nəsimi şeirində sözlər sərtləşə bilir, yumşala bilir, elastikləşə, gözəlləşə və canlana bilir".

S.Şıxıyevanın sözlərinə görə, şairin mövzu seçimi dəyişkən və rəngarəng olub. O, eyni zamanda, Nəsiminin təbliğatçı şair olduğunu, "mən" şəxs əvəzliyinin Nəsimidə qrammatik bir vasitə olmaqdan çıxaraq təsəvvüfi-fəlsəfi məzmun daşıdığını da dilə gətirdi.

### Nəsiminin söz ümmanından bəhrələnənlər

Təkcə Azərbaycanın deyil, ümumiyyətlə, türk divan və təsəvvüf ədəbiyyatının görkəmli nümayəndələrindən olan Nəsimi özündən sonra çox uzunömürlü bir ədəbi məktəbin sarsılmaz təməlini qoyub. Şairin çox mürəkkəb fəlsəfi fikirlərinin türk dilinin və əlbəttə ki, öz hisslərinin təbii axarına müvafiq şəkildə ifadəsi onun şeirinə səmimiyyət və canlılıq verib. Bu səmimilik Nəsimi şeirinin həmişəyaşarlığını təmin edərək, sonrakı dövrlərdə yazıb-yaradan söz ustalarını onun təsir dairəsinə cəzb etdi. Şairin hürufilik, irfan və fərdi düşüncədən süzülüb gələn fikirlərinin mürəkkəblik və sinkretizmi isə onun şeirinə bir əsrarəngizlik verərək, həm cəlbedici, həm də əlçatmaz etdi.

Nəsiminin Azərbaycan, Türkiyə, İran, Özbəkistan, Türkmənistan və İraq türkmən ədəbiyyatında davamçıları çox olsa da, az bir qismi onun sözünü incəliklərinədək dərk edərək qavraya bildi və onun dediklərinə nə isə əlavə etmək iqtidarında oldu. Nəsimi məktəbinin nümayəndələrinin sayı isə Nizami və Füzulinin ardıcıllarından sayca az deyil, bəlkə çoxdur. Çünki onun söz sənətinin təsiri divan, təriqət, yazılı, şifahi, türk, yaxud da farsdilli ədəbiyyat məhdudiyyəti tanımır.

### Nəsiminin ədəbi nüfuz dairəsi türk ədəbiyyatı ilə məhdudlaşmır

Nəsimi Azərbaycan ədəbiyyatı tarixində bədii-fəlsəfi şeirimizin özülünü qoymuş, söz sənətimizi forma və məzmunca zənginləşdirmiş, özündən sonrakı nəsillər üçün ədəbi irs qoyub gedib. Yaradıcılığa aşiqanə şeirlərlə başlayan Nəsimi sonralar dövrün siyasi, ictimai, əxlaqi mövzularında əsərlər yazıb, Azərbaycan ədəbiyyatı tarixində ana dilində yaranan fəlsəfi qəzəlin əsasını qoyub. Zərrədə günəş axtararaq varlığın bir vücuddan yarandığını deyən Nəsimi insanları gözəl və çirkin deyə ikiyə bölmür, milli ayrıseçkilik axtarmırdı. Könül tərbiyəsi və gözəlliyini insan ömrünün qayəsi sayan şair şeirlərində insana, insan ləyaqətinə, onun qüdrətinə olan yüksək inamını tərənnüm etməklə insanı həyatın yaradıcısı, həyati gözəlliklərin əsl mənbəyi kimi vəsf edib. Onun lirik qəhrəmanı düşünən və duyan kamil insan idi. O insan ki, nəfs yolunu deyil, ali bir eşq yolunu tutaraq kamala çatır, haqqa qovuşur. Haqqı özündə taparaq həqiqəti, gerçəkliyi duyur.

*Bulmuşam həqqi, ənəlhəq söylərəm,*
*Həq mənəm, həq məndədir, həq söylərəm.*
*Gör bu əsrarı nə müğləq söylərəm,*
*Sadiqəm qövlümdə, səddəq söylərəm*

Böyüməkdə olan gənc nəslin yüksək mənəvi-əxlaqi dəyərlər ruhunda tərbiyə olunmasında, oxucuların mənən kamilləşməsində Nəsimi irsinin xüsusi əhəmiyyəti var. Nəsiminin 650 illik yubileyi və 2019-cu ilin "Nəsimi ili" elan edilməsilə əlaqədar olaraq bu səpkidə çoxlu sayda maarifləndirici tədbirin, layihələrin keçirilməsi daha məqsədəuyğundur.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci il noyabr ayının 15-də "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" və 2019-cu il yanvar ayının 11-də "Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında" sərəncamlar imzalayıb. Bu sərəncamlar dövlət başçısının Nəsimi yaradıcılığına verdiyi yüksək dəyərdən xəbər verir.

Böyük şair, mütəfəkkir, qüdrətli söz ustadı Nəsiminin bəşəri ideyalarla zəngin irsi təkcə özündən sonrakı klassik Azərbaycan ədəbiyyatının, ana dilində poeziyamızın deyil, həmçinin, Yaxın Şərqdən Mərkəzi Asiyayadək bir sıra xalqların bədii-ictimai fikrinin inkişafına təsir göstərib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə dahi şairin 650 illik yubileyi, eləcə də ölkəmizdə elan edilən "Nəsimi ili" mədəniyyət, təhsil, elm ocaqlarında silsilə tədbirlər, layihələrlə qeyd edilir. Məlumat üçün bildirək ki, kitabxanalarda Nəsiminin əsərlərinin nəşrləri, şairin həyat və yaradıcılığı haqqında çoxlu kitab, monoqrafiyalar var. Şairin əsərləri rus, ingilis, alman, fransız, türk, fars və başqa dillərdə də işıq üzü görüb. Nəsimi haqqında müxtəlif ekran, səhnə, musiqi əsərləri var, amma humanizm carçısı olan şairin irsi ilə ən yaxın, bilavasitə tanışlıq mənbəyi onun özünün əsərləridir.

*Günel CƏLİLOVA*

**Yazı Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi birgə müsabiqəyə təqdim edilir.**

**Məlum olduğu kimi, 2020-ci ildən Azərbaycanın bütün rayon və şəhərlərində icbarii tibbi sığortanın tətbiqi nəzərdə tutulur. İcbari tibbi sığortanın ölkəboyu tətbiqi səhiyyə sistemində nəzərdə tutulan islahatların ana xəttini təşkil etməlidir.**

# Tibbi sığorta sistemi həkimlərin firma dərmanları yazmaq üsuluna son qoyacaq

## *Musa Quliyev: "...məcbur olacaqlar ki, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) protokol tələbinə əməl etsinlər"*



*"İcbari tibbi sığorta sistemi ölkə üzrə tam tətbiq edildikdən sonra həkimlərin xəstələrə yazdığı reseptlərə İcbari Tibbi Sığorta Agentliyi və yeni yaradılan TƏBİB publik hüquqi şəxs tərəfindən nəzarət ediləcək"*

Rəsmi məlumata görə, icbari tibbi sığorta ilə bağlı Mingəçevir şəhəri, Yevlax və Ağdaş rayonlarında həyata keçirilən pilot layihələrdən əldə olunan nəticələr ümidvericidir. Birincisi, insanlar icbari tibbi sığortanın tətbiqindən razıdırlar, ikincisi, icbari tibbi sığorta ilə məşğul olan mütəxəssislərin özləri təcrübə toplayıb.

2020-ci ilin yanvar ayından etibarən bütün ölkə miqyasında icbari tibbi sığortanın tətbiq olunması ilə bağlı Azərbaycan Prezidenti fərmanı imzalayıb. Fərmana görə, böyük əhali qrupu müalicə xərclərindən azad edilir. Buraya təqaüdçülər, uşaqlar, əmək qabiliyyətini itirənlər və sosial qruplar daxildir. Bu sosial qrupların müalicəsi ilə əlaqədar bütün sığorta xərcləri ödəniləcək. Qalan kateqoriyalar üzrə, yəni işləyən insanların isə əməkhaqqından və onları işə götürən müəssisə tərəfindən müəyyən faiz ödəniləcək və sığorta hesabına müalicə alacaqlar.

İcbari tibbi sığortanın tətbiqi əhalinin sosial vəziyyətinin yaxşılaşmasına kömək edəcək və insanlara daha keyfiyyətli tibbi xidmətin göstərilməsi təmin olunacaq.

İcbari tibbi sığortanın üstünlüklərindən biri də həkimlərin xəstələrə artıq firma dərmanı yazmaması olacaq.

Hansısa həkimin reseptə icbari tibbi sığorta paketinə daxil olmayan firma dərmanı yazdığı üzə çıxarsa, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və yaxud da TƏBİB publik hüquqi şəxs o həkimlə müqaviləyə xitam verəcək.

Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) protokolunda qeyd olunur ki, xəstəliklərin hansı üsulla müalicə olunduğu qeyd olunmalıdır.

Maraqlıdır, həkimlərin resept yazarkən firma dərmanı təyin edib-etməməsinə necə nəzarət olunacaq?

**Millət vəkili Musa Quliyev qeyd etdi ki, icbari tibbi sığortanın ölkə üzrə tətbiqindən sonra Azərbaycanda dərman firmalarının həkimlərlə işbirliyinə son qoyulacaq:** "Bu proses icbari tibbi sığortanın tətbiqindən sonra tədricən işə düşəcək. İcbari tibbi sığortanın tələblərindən biri xəstələrin tibbi protokola əsasən müalicə edilməsi məsələsidir. Həkimlər icbari tibbi sığorta sistemi Azərbaycanda tam işə düşəndən sonra məcbur olacaqlar ki, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) protokol tələbinə əməl etsinlər. Bu protokolda hansı xəstəliklərin hansı üsulla müalicə olunduğu qeyd edilməlidir".

Deputat bildirib ki, icbari tibbi sığorta sistemi ölkə üzrə tam tətbiq edildikdən sonra həkimlərin xəstələrə yazdığı reseptlərə İcbari Tibbi Sığorta Agentliyi və yeni yaradılan TƏBİB publik hüquqi şəxs tərəfindən nəzarət ediləcək: "Belə deyək ki, bu qurumlar həkimlərin xəstələrə yazdığı resepti izləyə biləcəklər. Çünki həkim xəstəyə yazdığı resepti elektron sistemə daxil edəcək. Bu zaman həkimin xəstəyə müalicə protokoluna uyğun dərman yazıb-yazmadığına nəzarət olunacaq. Bu sistem həkimlərin xəstələrə artıq və tibbi göstəriş olmadan dərman yazmasının da qarşısını alacaq. Həkimlərin beləcə tədricən dərman firmaları ilə işbirliyinə son veriləcək. Hansısa həkimin reseptə icbari tibbi sığorta paketinə daxil olmayan firma dərmanı yazdığı üzə çıxarsa, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və yaxud da TƏBİB publik hüquqi şəxs o həkimlə müqaviləyə xitam verəcək".

***Günel CƏLİLOVA***

---

**Hansı təhsil, tərbiyə müəssisəsində fəaliyyət göstərməsinə baxmayaraq, müəllimin nitqi səlist, rəvan və zəngin olmalıdır. Uşaqlara bilik verən müəllim Azərbaycan dilini mükəmməl bilməli və danışarkən dilimizə yad olan kəlmələrdən istifadə etməməlidir. Ancaq təəssüf ki, biz bu mükəmməlliyi əksər müəllimlərin danışığında görə bilmirik.**

# Dilçilik İnstitutu müəllimləri dil maarifçiliyi kurslarına cəlb etmək istəyir - niyə?

## *Buludxan Xəlilov: "Bu maarifləndirici işlər cəmiyyətdə dillə bağlı müəyyən neqativ halların aradan qaldırılması üçün atılan müsbət addımlardır"*




*"Təklif edərdim ki, hər bir məktəbdən bu layihəyə, kursa aparıcı müəllimlər, mütəxəssislər dəvət olunsun"*

Son dövrlər Azərbaycan dilinin işləkliyinin təmin edilməsi, dilimizdəki əcnəbi, xüsusən də rus sözlərinin milli sözlərimizlə əvəz edilməsi istiqamətində çoxşaxəli maarifləndirici tədbirlər həyata keçirilir.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Dilçilik İnstitutu bu istiqamətdə bir sıra təkliflərlə çıxış edir. Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu mətbuata bildirib ki, Azərbaycan dilində əcnəbi sözlərə üstünlük verilməsinin qarşısının alınması üçün uşaq bağçası, orta və ali təhsil müəssisələrində çalışan müəllimlərin təlimlərə cəlb olunmasını təklif edib.

M.Nağısoylunun sözlərinə görə, bununla bağlı yeni yaradılan Monitorinq Mərkəzi tərəfindən təlimlər keçirilməsi təklif edilib: "Sırf müəllimlər üçün müəyyən kurslar daxilində maarifləndirmə işlərinin aparılması təqdirəlayiqdir. Azərbaycan dilində heç bir problem yoxdur. Problem, sadəcə olaraq, dilin daşıyıcılarında, dildən istifadə edənlərdədir. Bəziləri öz milli sözlərimizi qoyub alınma sözlərə üstünlük verirlər. Misal üçün, bu gün bəziləri "uje", "davay", "neujeli", "astanovka", "xolodilnik" sözlərindən geniş istifadə edirlər. Bu sözlər dilimizdə baş alıb gedir. Baxmayaraq ki, bu sözlərin hamısının dilimizdə qarşılığı var".

M.Nağısoylu Azərbaycan dilinin saflığının qorunması üçün ailələrə və təhsil müəssisələrinə çağırış edib: "Dilimizdə əcnəbi sözlərə üstünlük verilməsinin qarşısının alınması üçün ailələrdən, bağçalardan başlanmalıdır və daha sonra bu, orta və ali təhsil müəssisələrində davam etdirilməlidir. Beləliklə, uşaqlara izah etmək lazımdır".

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, Dövlət Dil Komissiyasının üzvü, professor Buludxan Xəlilov "Bakı-Xəbər"ə bildirdi ki, dilin təmizliyinin qorunması üçün İnstitutun gördüyü işlər müsbət qiymətləndirilməlidir.** "Hər halda, bu maarifləndirici işlər cəmiyyətdə dillə bağlı müəyyən neqativ halların aradan qaldırılması üçün atılan müsbət addımlardır. Amma belə hesab edirəm ki, söhbət Bakı şəhərindən gedirsə, bütövlükdə, bütün müəllimləri həmin layihəyə, kurslara, təlimlərə cəlb etmək mümkün olmayacaq. Mən təklif edərdim ki, hər bir məktəbdən bu layihəyə, kursa aparıcı müəllimlər, mütəxəssislər dəvət olunsun və onlar da fəaliyyət göstərdikləri məktəbdə dilimizlə bağlı maarifləndirici işlər aparsınlar. Yəni təkcə Dilçilik İnstitutu bu işi öz öhdəsinə götürsə, bu işi həyata keçirməyə həm vaxt lazımdır, həm də fiziki baxımdan mümkün olmayacaq. Bakı şəhərinin konkret məktəblərində bir sıra nüfuzlu mütəxəssislər var. Məktəblərdən tarix, riyaziyyat, biologiya, kimya fənni müəllimlərini də bu maarifləndirici işə qoşmaq olar. Həmin müəllimlər təlimatlara, kursun tələblərinə uyğun olaraq təbliğat apararlar. Bu, işin bir tərəfi. Digər tərəfdən, həmin müəllimləri kurslara cəlb edib onları yerləşdirmək bir qədər çətin olduğu üçün, Dilçilik İnstitutunun Monitorinq Mərkəzinin əməkdaşları bölgü apara bilər və həmin bölgü üzrə ay üzrə məktəblərdə bununla bağlı görüşlər keçirə bilərlər və müəllimləri toplayıb bu istiqamətdə mühazirələr oxuya bilərlər. Ayda 15-20 məktəbdə mərkəzin mütəxəssislərinin müəllimlərlə görüşləri keçirilsə, bu artıq xeyli iş olar. Bu böyük məsuliyyətdir. Bu o deməkdir ki, artıq Azərbaycan dilinin tədrisinə, təbliğinə dövlət səviyyəsində, xüsusilə də dili öyrənən akademik bir müəssisə olan Dilçilik İnstitutu səviyyəsində nəzarət var. Bu amil də cəmiyyətdə bir məsuliyyət yarada bilər. Çünki bizim cəmiyyət nəzarəti sevən cəmiyyətdir. Nəzarət olanda öz işini məsuliyyətlə yerinə yetirir. Qeyd etdiyim iki istiqamət üzrə Dilçilik İnstitutu bu fəaliyyətini qurmaqla onun müəyyən nailiyyətlər, irəliləyişlər əldə etməsi mümkündür".

B.Xəlilov, həmçinin, vurğuladı ki, məktəbəqədər müəssisələrin və ali məktəblərin müəllimləri arasında da bu şəkildə təbliğat işinin qurulması müsbət nəticə verə bilər.

***İradə SARIYEVA***

№ 103 (4001) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

13 İYUN 2019-cu il

www.baki-xeber.com



## "Bakcell" gənclərin karyera və məşğulluq imkanlarını artırır

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkəti Təhsil Nazirliyi və Gənclər və İdman Nazirliyinin dəstəyi, UNEC-in təşkilatçılığı ilə "Gənclər üçün Əmək Yarmarkası - 2019" tədbirinə qatılıb.**

Çoxsaylı tələbə, magistr və məzunların, dövlət qurumları, yerli və xarici şirkətlərin iştirak etdiyi əmək yarmarkasının əsas məqsədiAzərbaycan gənclərinin məşğulluğunun təmin edilməsinə dəstək göstərməkdir.

Əmək yarmarkası zamanı gənclərə "Bakcell" şirkətində mövcud olan vakansiya və təcrübə imkanları barədə ətraflı məlumat verilib və potensial namizədlərlə müsahibələr keçirilib.

Ölkənin qeyri-neft sektorunun ən iri investorlarından olan "Bakcell" şirkəti gənclərin təhsilinin və karyerasının inkişafına mütəmadi olaraq dəstək göstərir. Şirkət mütəmadi olaraq müxtəlif təhsil müəssisələri, dövlət qurumları və digər təşkilatlar tərəfindən təşkil olunan karyera sərgilərində fəal iştirak edir. Müsahibədən uğurla keçən gənclər ölkənin ən böyük və ən innovativ şirkətlərindən birində iş və ya təcrübə imkanı qazanır.

## Elan

Şəki şəhər sakini İsrafilov Abduləhəd Ağamalı oğlunun adına verilmiş 9177/3264 saylı ev qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Xudiyev Firdovsi Kərim oğlunun adına "Samuray GROUP LTD" MMC № 1306103181 VÖEN və "AVENTU SERVİS" MMC № 1306103201 VÖEN itdiyi üçün etibarsız sayılır.

---

"Buta" Un dəyirmanı kompaniyasına (VÖEN №1300177611) məxsus möhür və digər sənədlər itdiyi üçün etibarsız sayılır.

---

Abbasova Gülüşən Məhəmməd qızına məxsus, Bakı şəhəri, Xocalı küçəsi, ev 17, mənzil 9 ünvanının qeydiyyat vəsiqəsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

---

Məmmədov Rəşad Zakir oğluna Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən verilmiş 1004070 A xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

---

Zeynalova Sevil Qasım qızına məxsus, Bakı şəhəri, Binəqədi rayonu, M.Ə.Rəsulzadə qəsəbəsi, 3184/87-ci məhəllə, Z.Qəmbərov küçəsi, ev 2, mənzil 35 ünvanının qeydiyyat vəsiqəsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

---

Paşayeva İlahə Şahin qızının adına "Hunday" ix 35 90 UP 949 dövlət nömrə nişanlı avtomaşının texniki pasportu itdiyi üçün etibarsız sayılır.

---

Axundova Fatimə Mehman qızına Qərbi Kaspi Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Üç ölkənin keçirdiyi lotereyanı Britaniyalı uddu - 123 milyon...



**Böyük Britaniya sakini EuroMillions lotereyasında 123 milyon funt sterlinq (156 milyon dollar) qazanıb və ölkədə üçüncü ən böyük uduşun sahibi olub.**

"Trend"in məlumatına görə, bu barədə "Mirror" qəzeti yazıb. Məlumata əsasən, qalib beş əsas nömrələri və iki "şanslı ulduzu" tapa bilib. Qeyd edək ki, birinci EuroMillions lotereyası 13 fevral 2004-cü ildə üç ölkədə - Fransa, İslandiya və Böyük Britaniyada keçirilib.

## Rusiyalı alim "GMO-uşaq" yaradır

**Rusiya bioloqu Denis Rebrikov "GMO-uşaq" (Genetik Modifikasiya olunmuş Orqanizm) yaratmağı planlaşdırır.**



"Milli.Az" xəbər verir ki, bioloq sensasiyalı plan haqqında "Nature" jurnalına müsahibəsində danışıb. Rebrikovun sözlərinə görə, əgər müvafiq razılıq alacağı halda, ilin sonuna kimi GMO embrionların implantasiyasını həyata keçirmək imkanına baxır. Sınaq CCR5 geninin modifikasiyasına hədəflənəcək. Bu modifikasiya üzərində ötən ilin noyabrında ilk "GMO-uşaq"ların yaradılması haqqında planlarını açıqlayan qalmaqallı məşhur Çin bioloqu Xe Szyankuy işləyirdi. Rebrikov iddia edir ki, genin modifikasiyası üzrə onun metodu daha faydalı, daha az təhlükəli, cəmiyyət üçün daha etik və münasib olacaq.

Bununla belə, "Nature" nəşrinin fikrini öyrəndiyi mütəxəssislər Rusiya bioloqunun planlarından narahatlığını ifadə ediblər. Mütəxəssislərin fikrincə, bioloqun istifadə etməyə planlaşdırdığı genin dəyişdirilməsi texnologiyası hələ ki hazır deyil. Bundan başqa, prosedurun etik tərəfi müəyyən suallara səbəb olur. Qeyd edək ki, Denis Rebrikov - biologiya elmləri doktorudur. O, Moskvada Kulakov adına Mamalıq, Ginekologiya və Perinatologiya Milli Tibb Tədqiqat Mərkəzində GMO laboratoriyasına başçılıq edir və Piroqov adına Rusiya Milli Tədqiqat Tibb Universitetinin elmi işçisidir.

## Ultra sürətli metal ion batareyalar

**Skoltek Elmi Enerji və Texnologiya Mərkəzinin (Skoltech Center for Energy Science and Technology) araşdırmaçıları ultra sürətli metal ion batareyalar üçün yeni polimer katod materialı hazırladılar.**

"Deyerler.org" bildirir ki, son on il ərzində dünyadakı enerji istehlakı əhali artımı, sənayeləşmə, mobil cihazlar və elektrikli vasitələrdəki artım səbəbiylə artmağa başladı. Bu səbəblə təcili olaraq elektrokimyəvi enerji yığma texnologiyalarına ehtiyac var. Litium ion batareyalar isə, daha müasir səviyyələr üçün ehtiva etdiyi ağır elementlər səviyyəsi səbəbiylə çox da uyğun deyil. Buradakı problem isə katod materiallar kimi komponentlərlə həll edilə bilər. Orqanik katodların, yüksək enerji sıxlığı, təsiredici səviyyədəki enerji nisbəti və güclü mexaniki deformasiyalarına qarşı dayanıqlılıq kimi üstünlükləri var. Bu texnologiyanın bir başqa üstünlüyü isə, təbiət dostu olmasıdır. Bu texnologiya, təbii materiallardan çıxarıldığı üçün geri qazanılma mövzusunda da olduqca böyük bir üstünlük təmin edir. Bütün bu üstünlüklərə əlavə olaraq orqanik katodlar, elektrolit içərisində olan bahalı litium duzlarının yerini daha ucuz olan natrium və kalium analoqlarının doldurmasına da icazə verir.





**Qoç** - Müsbət emosiyalar almağa elə can atırsınız ki, həyatın yalnız bu emosiyalardan ibarət olmadığını unudursunuz. Bu gün vəzifələrinizi unudur, verdiyiniz sözləri yadınıza salmaq istəmirsiniz.



**Buğa** - Yaxşı ideyalar və yeni planlar çoxdur, bunların reallaşdırılması qarşınızda yeni imkanlar açır. Düzdür, çox işləməli olacaqsınız, üstəlik, şərait də bir o qədər ürəkaçan olmayacaq.



**Əkizlər** - Ünsiyyət və yeni tanışlıqlar üçün çox münasib gündür. Çox cazibədarsınız, bu, ətrafınızdakıların nəzərindən yayınmır. Yeni eşq macərasının başlanması ehtimalı böyükdür, amma hisslərin dərinliyi hələlik sual altındadır.



**Xərçəng** - Xırda çətinliklər və problemlər çox olsa da, nə sizin əhvalınıza, nə də baş verən hadisələrə münasibətinizə təsiri olmayacaq. Ev işlərilə məşğul olmaq faydalıdır, yaxınlarınız da sizə həvəslə kömək edəcəklər.



**Şir** - Gözəl ideyalar, gələcək üçün maraqlı planlar yaranır. Əsas odur ki, onları reallaşdırarkən tələsməyib, daha yaxşı məqamı gözləyəsiniz. Bu gün mənfi tendensiyalar vaxtaşırı özünü büruzə verir, özü də sizin heç gözləmədiyiniz bir vaxtda.



**Qız** - Parlaq, yaddaqalan, üstəlik, məhsuldar və xoş gündür. Həyatınızı kökündən dəyişə bilərsiniz, yetər ki, istəyin. Faydalı məlumatlar vaxtında gəlir və yalnız intuisiyanın hesabına qərar verməyə gərək qalmır.



**Tərəzi** - Fikirlərinizdə, planlarınızda və istəklərinizdə bir nizam yaratmağa nail ola bilmirsiniz. Eyni zamanda, düşmənləriniz sizi yanıldır, sizi idarə etməyə çalışırlar, özünüzü toplayın.



**Əqrəb** - İşlər sizin gözlədiyiniz kimi getmir. Planlarınız dağılır, yeni şəraitə uyğunlaşmaq lazım gəlir. Etibar etdiyiniz insanların dəstəyindən məhrum olmağınız işləri daha da çətinə salır.



**Oxatan** - Diqqətinizə işə yönəltsəydiniz, çox şeyə nail ola bilərdiniz. Ancaq bu gün bürcün nümayəndələrini uğur deyil, ətrafdakıların tədqiri daha çox maraqlandırır. Bu "faydalı" məşğuliyyət xeyli vaxtınızı və gücünüzü alır.



**Oğlaq** - Bu günün uğurları entuziazmla düz mütənasibdir. Əgər cəndərdi iş görürsünüzsə, heç bir nailiyyətə ümid etməyin. Ruh yüksəkliyi və nikbinlik isə istənilən problemi aradan qaldırmağa kömək edəcək.



**Dolça** - Ətrafınızdakılarla heç cür dil tapa bilmirsiniz. Bu həm işgüzar, həm şəxsi münasibətlərə aiddir. Bir çox Dolçalar o qədər anlaşılmazlıqla rastlaşırlar ki, demək olar ki, hamını özlərinə düşmən görürlər.



**Balıqlar** - Qələbə qazanmaq istəyirsiniz, amma bunun üçün heç bir iş görmürsünüz. Nə ağıllı, nə də sərfəil mövqedir. Ola bilsin ki, bəxtiniz gətirsin, ancaq doğrudan da, müvəffəqiyyət əldə etmək niyyətiniz varsa, o zaman işləyin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Məktəblərdə köçürməyə qarşı süni intellekt istifadə ediləcək

**Şagirdlər tərəfindən yazılan məqalə, tapşırıq ya da imtahan kağızlarının idarə edilməsində, süni intellekt texnologiyasından faydalanılacaq.**

Bir kompyuterin və ya kompyuterin idarəsi altında olan bir robotun, müxtəlif fəaliyyətləri ağıllı canlılara bənzər formada yerinə yetirmə qabiliyyəti mənasını verən süni intellekt, indiki vaxtda bir çox sahədə olduqca təsirli bir formada istifadə edilir. Son zamanlarda bazara çıxan əksər smartfonlarda istifadə edilən bu texnologiya, eyni zamanda sağlamlıq sahəsində də olduqca gözəl nəticələr doğura bilir. Süni intellekt texnologiyası, gələcəkdə təhsil sahəsində də buna bənzər bir formada rol alacaq. Kopenhagen Universiteti, tələbələr tərəfindən yazılan məqalə, tapşırıq ya da imtahan kağızlarının özləri tərəfindən yazılıb yazılmadığını 90% nisbətində müəyyən edə bilən 'Ghostwriter' adlı süni intellekt proqramının, yaxın gələcəkdə istifadə edilə biləcəyini eşitdirdi.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə
Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39
e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846
Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.
Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.